İnfrastruktur layihələri icra edilməyə başlandı. Elektrik enerjisi ilə təchizat təmin edildi. Bu gün bu məsələ ilə bağlı heç bir problem yoxdur. Təbii qaz indi Naftalanda yüz faiz təmin edilir. Əhalinin yüz faizi təbii qaza malikdir. Naftalanda içməli su layihəsi beş il bundan əvvəl mənim iştirakımla istismara verilmişdir. Yollar salındı, digər infrastruktur layihələri icra edildi, məktəblər əsaslı şəkildə təmir olundu. Yəni, Naftalanda infrastruktur layihələri ilə bağlı olan bütün məsələlər kompleks şəkildə öz həlli tapdı. O cümlədən şəhərin abadlaşdırılması işlərinə vəsait ayrıldı, parklar salındı, icra hakimiyyətinin yeni binası, Heydər Əliyev Mərkəzi tikildi və Naftalanın əvvəlki şöhrəti özünə qaytarıldı.

Bu, işin birinci mərhələsi idi. Bu layihələr həyata keçirilmədən hər hansı bir inkişafdan söhbət gedə bilməzdi. Bununla paralel olaraq, biz Naftalanı müasir turizm mərkəzinə çevirmək üçün konkret addımlar atmağa başlamışıq. Mənim iştirakımla 3 böyük sanatoriya, - indi onlar mehmanxana sayılırlar, - yenidən tikildi, əsaslı şəkildə təmir edildi və istifadəyə verildi. Birinci “Çinar” sanatoriyası, ondan sonra “Qaşaltı”, ondan sonra isə “Qarabağ”. Bu 3 sanatoriya-mehmanxanada mindən çox otaq var. Burada həm ən yüksək səviyyədə müalicə işləri aparılır, həm də ki, vətəndaşlar və qonaqlar istirahət edirlər. Yaxın gələcəkdə yeni mehmanxananın açılışı gözlənilir. Mənə indi bu barədə məlumat verildi. O qədər də böyük olmayan digər mərkəzlər, istirahət zonaları yaradılır. Beləliklə, Naftalan nəinki ölkəmizin, dünyanın nadir turizm mərkəzlərindən birinə çevrilir.

Mənə verilən məlumata görə, keçən il Naftalana 62 ölkədən 35 min qonaq gəlmişdir. Baxın, on il bundan əvvəl, ümumiyyətlə, gələn qonaqlardan söhbət belə getmirdi. Ancaq ötən il 35 min qonaq gəlib. Mən hesab edirəm ki, bu, hələ başlanğıcdır. Çünki məndə olan məlumata görə, sovet vaxtında Naftalana ildə 70 min qonaq gəlirdi. Hesab edirəm ki, bu gün Azərbaycanda turizmin çox sürətlə inkişaf etdiyini nəzərə alsaq, biz bu hədəfə çata bilərik. Turistlərin sayı 2016-cı ildə 22 faiz, 2017-ci ildə 20 faiz, bu ilin 5 ayında isə 10 faiz artıb. Azərbaycan indi dünya miqyasında gözəl turizm mərkəzi kimi tanınır. O cümlədən müalicəvi turizmin inkişafı üçün bizdə bütün imkanlar var, həm Naftalanda, həm digər şəhərlərdə. Belə şəraiti olan şəhərdə, əlbəttə ki, qonaqların sayı artmalıdır.

Son 10 il ərzində Naftalanda görülən işlər ümumi inkişaf dinamikamızı göstərir. Onu göstərir ki, güclü siyasi iradə olan yerdə, düşünülmüş siyasət aparılan ölkədə uğurlar da, nəticələr də, qələbələr də olacaq, insanlar daha yaxşı yaşayacaqlar. Naftalanda iş yerlərinin yaradılması son illər ərzində çox sürətlə gedib. Burada yaşayan vətəndaşların böyük əksəriyyəti xidmət sektorunda işləyir, yaxşı məvacib alır və ölkəmizin inkişafına öz dəyərli töhfəsini verir. Əminəm ki, bundan sonra Naftalanda işlər yaxşı gedəcək və şəhərin inkişafı uğurla davam etdiriləcək.

Sizi bir daha bu gözəl hadisə münasibətilə təbrik edirəm.

* * *

**Naftalan Şəhər Mərkəzi Xəstəxanasının həkimi Tünzalə SƏFƏROVA çıxış edərək dedi :**

-Möhtərəm cənab Prezident, Sizi səhiyyə işçiləri adından salamlayıram, Naftalana xoş gəlmisiniz. Bu gün bizim üçün çox əlamətdar bir gündür. Sizin tapşırığınızla şəhərimizdə inşa edilmiş bu yeni xəstəxana binasını istifadəyə verirsiniz. Ən müasir tibbi avadanlıqlarla təchiz olunmuş bu xəstəxana əhalimizin sağlamlığının qorunmasına və onların daha yaxşı tibbi xidmət almalarına böyük kömək göstərəcək. Bu gün elə bir bölgəmiz yoxdur ki, orada yeni-yeni səhiyyə obyektləri tikilməsin və ya istifadəyə verilməsin. Bu səhiyyə obyektlərinin tikilməsinə görə Sizə dərin minnətdarlığımızı bildiririk. Siz bütün siyasətinizlə ümumbəşəri dəyərlərə sadiq qaldığınızı bir daha nümayiş etdirirsiniz. Açılışında iştirak etdiyiniz bu yeni tibb müəssisəsi də vətəndaşlarımızın sağlamlığının qorunmasına və onların daha yaxşı tibbi xidmət almalarına böyük kömək göstərəcək. Sizin tapşırığınızla hər il icra etdiyimiz vətəndaşların ödənişsiz tibbi müayinəsi bu geniş səhiyyə ocağında daha yaxşı və mütəşəkkil şəkildə həyata keçiriləcək. Gördüyünüz bütün bu işlərə görə xalqımız məhz Sizə - öz Prezidentinə bir daha inanır və dərindən rəğbət bəsləyir. Bütün bu işlərə görə Sizə və Sizin ən yaxın silahdaşınız olan Mehriban xanıma dərin minnətdarlığımızı bildiririk. Fürsətdən istifadə edərək, salamlarımızı hörmətli Mehriban xanıma çatdırmağınızı xahiş edirik. Sağ olun, var olun. Allah Sizi və ailənizi qorusun.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

**AZƏRTAC**

# Prezident İlham Əliyevin Goranboy rayonuna və Naftalan şəhərinə səfəri

## Ali Baş Komandan İlham Əliyev Müdafiə Nazirliyinin “N” saylı hərbi hissəsi üçün inşa edilmiş şəhərciklə tanış olub

**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 5-də Müdafiə Nazirliyinin “N” saylı hərbi hissəsi üçün inşa edilmiş hərbi şəhərcikdə yaradılan şəraitlə tanış olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıkov dövlətimizin başçısına raport verdi.

Məlumat verildi ki, bu hərbi şəhərciyin inşasına 2015-ci ilin yanvarında başlanılıb və 2017-ci ilin fevralında tikinti işləri başa çatdırılıb. Hərbi şəhərcikdə yaşayış və qeyri-yaşayış binaları, hərbi texnikanın saxlanması üçün park inşa edilib. Ərazidə qərargah binası tikilib. Binadakı 28 xidməti otaqda hərbi qulluqçular üçün zəruri şərait yaradılıb. Otaqların hamısı lazımi avadanlıqla təchiz olunub. Hərbi şəhərcikdə 120 nəfərlik 8 və 150 nəfərlik 1 əsgər yataqxanası tikilib. Yataqxanalarda əsgərlərin rahatlığı üçün hərtərəfli şərait yaradılıb. Burada 14 mənzilli yaşayış binası da inşa olunub. Əsgər yeməkxanası da yüksək səviyyədə qurulub. Burada hərbi qulluqçuların qidalanmaları üçün geniş imkanlar var. Hərbi şəhərcikdə çörəkbişirmə məntəqəsi də fəaliyyət göstərir. Hərbi qulluqçuların istirahəti ilə yanaşı, onların asudə vaxtlarının səmərəli təşkili üçün şəhərcikdə bütün tədbirlər görülüb. Ərazidə inşa olunan trenajor binasında atış və sürücülük məşqlərinin keçirilməsi üçün 4 tank və 6 piyada döyüş maşını təlim-məşq qurğusu quraşdırılıb.


















Hərbi şəhərcikdə klub binası da var. Burada ölkəmizin, eyni zamanda, hərbi hissənin həyatında baş verən əlamətdar günləri qeyd etmək mümkün olacaq. Şəhərcikdə yaradılan hamam-camaşırxana-qazanxana kompleksi də müasirliyi ilə seçilir. Ərazidə tibb məntəqəsi tikilib. Müasir avadanlıqla təchiz olunan bu məntəqə 56 çarpayılıqdır. Şəhərcikdə ərzaq və əşya anbarları, transformator yarımstansiyası, nəzarət-buraxılış məntəqəsi, su nasos stansiyası, 500 kubmetrlik 2 su anbarı quraşdırılıb. Hərbi şəhərcikdə genişmiqyaslı abadlıq və yaşıllaşdırma işləri görülüb.

Prezident, Ali Baş Komandan İlham Əliyev hərbi hissədəki texnikalara baxdı.

Bildirildi ki, 2S31 “Vena” özüyeriyən artilleriya qurğusu PDM-3 döyüş maşınının bazasında olub, düşmənin atış vasitələrini, tank əleyhinə vasitələri susdurmaq və məhv etmək, düşmənin səngərdəki canlı qüvvəsini, yüngül zirehli texnikasını və idarəetmə məntəqələrini məhv etmək, artilleriya və minaatan batareyalarını, raketburaxma qurğularını susdurmaq üçün təyin edilib.

Divizion komandirinin 1V15 idarəetmə kompleksi yüngül zirehli MT-Lbu maşını bazasında divizion komandirinin hərəkətli komanda-müşahidə məntəqəsi olub gündüz və gecə vaxtı ərazinin və düşmənin kəşfiyyatını aparmaq, öz yerini və hədəflərin koordinatlarını müəyyən etmək, sınaq atışına xidmət göstərmək və atəşə düzəlişlər vermək, yuxarı rəislər, ümumqoşun bölmələrinin və digər bölmələrin komandirləri ilə rabitə əlaqəsi saxlamaq üçün nəzərdə tutulub.

Piyadanın döyüş maşını olan PDM-3 piyada və motoatıcı hissələri atəşlə təmin etmək, onların mobil fəaliyyəti və qorunması üçün nəzərdə tutulub. Başqa qoşun növləri üçün də modernləşdirilmiş nümunələri olan bu maşın şəxsi heyəti çevrəvarı olaraq qəlpə və atıcılıq silahından, üz hissəsi isə 30 millimetrlik mərmilərdən qoruyur.

PDM-2 maşını da piyada və motoatıcı hissələri atəşlə təmin etmək, onların mobil fəaliyyəti və qorunması üçün nəzərdə tutulub. Onun silahlanmasına 30 millimetrlik 2A42 avtomatik topu, bir 7,62 millimetrlik PKTM pulemyotu və 9M113 tank əleyhinə idarəolunan raket qurğusu daxildir.

Piyadanın döyüş maşını olan BTR 82-A motoatıcı bölmələri atəşlə təmin etmək, onların mobil fəaliyyəti və qorunması üçün nəzərdə tutulub. Silahlandırmada olan bu zirehli təkərli transportyor motoatıcı bölmələrin şəxsi heyətinin manevr və marş zamanı daşınmasını, su maneələrinin dəf edilməsini, heyət və desantın atıcı silahlardan, mina və mərmi qəlpələrindən qorumaq, o cümlədən düşmənin canlı qüvvəsini, yüngül zirehli texnikasını məhv etmək üçün təyin olunub.

SANDCAT mobil radio idarəetmə məntəqəsi əməliyyat idarəetmə sistemlərində tətbiq olunmaqla hərəkətdə və dayanacaqda qərargah zabitlərinin idarəetməsini təmin etmək üçündür. SANDCAT mobil radio qovşağı analoq, rəqəmsal açıq, məxfi, sinxron, tezlik dəyişən, həmçinin bütün növ məlumatların kompüterlə ötürülməsi və qəbul edilməsi üçün nəzərdə tutulub.

Spike-LR tank əleyhinə idarəolunan raket kompleksi sürətli manevr edərək istənilən hava şəraitində düşmənin hərəkətsiz və hərəkətdə olan tank və zirehli texnikalarını məhv etmək üçün təyin edilib. Avtomobilin üzərindəki raketburaxma qurğusu universal, idarəedilən, gecə və gündüz döyüş fəaliyyətlərinin aparılması üçün silah sistemidir. Bu qurğu qabaqcıl texnologiyalı atəşə nəzarət sistemindən ibarət olub uzaq məsafələrə dəqiq atəş açır və şəxsi heyətin qorunmasını təmin edir.

TUFAN-1 radiomaneə stansiyası axtarış aparmaq, texniki analiz, pelenqləmə, yerüstü və hava radiorabitə vasitələrinin, radioşüalanma mənbələrinin yerinin təyin edilməsi, fiksə olunmuş tezliklərin və tezliyin proqramla yenidən qurulması rejimində işləyən radiorabitə xəttinin susdurulması üçün nəzərdə tutulub.

Ali Baş Komandana “ORBİTER-3B” Pilotsuz Uçuş Aparatı təqdim olundu.

Bildirildi ki, cəmi 28 kiloqram çəkisi olan bu aparat 5486 metr maksimal hündürlükdə döyüş əməliyyatlarında tətbiq etmək, hava kəşfiyyatını aparmaq, eləcə də istənilən şəraitdə hədəfgöstərmə və artilleriya atəşinə xidmət etmək üçün təyin edilib.

SPİKE-ER tank əleyhinə idarəolunan raket kompleksi istənilən hava şəraitində düşmənin hərəkətsiz və hərəkətdə olan tank və zirehli texnikalarını məhv etmək üçün nəzərdə tutulub. Bu kompökslə yüngül çöl-müdafiə qurğularına səmərəli atəş açmaq, kəşfiyyat xarakterli fəaliyyətlər yerinə yetirmək və yerüstü müşahidə məntəqələrindən müşahidə edilməyən hədəfləri məhv etmək mümkündür.





Bundan əlavə, silahlanmaya yeni qəbul edilən texnikalar arasında zirehləndirilmiş daşıyıcı dartıcı maşın olan və döyüş sahəsində texnikaların təxliyəsini və onların üzərində təmir işlərinin aparılmasını nəzərdə tutan BREML-L, düşmənin yüksəkliklərdə, yamaclarda, təpələrin arxasında yerləşən canlı qüvvəsini, döyüş texnikasını məhv edən və motoatıcı bölmələrin atəş dəstəyini təmin edən 120 millimetrlik 7E2 SANDCAT-SPEAR minaatanı, gecə, gündüz və hər cür hava şəraitində hədəflərin uzaq məsafədən təyin olunması, öyrənilməsi, koordinatlarının müəyyənləşdirilməsi üçün nəzərdə tutulan “Bayquşgöz” və “Şahingöz” elektro-optik müşahidə sistemi, hərbi obyektləri, dövlət orqanlarının binalarını, yüksək səlahiyyətli şəxslərin yaşayış yerlərini, tədbirlər üçün nəzərdə tutulan əraziləri və nəzarət-buraxılış məntəqələrini pilotsuz uçuş aparatlarına qarşı siqnalların aktiv qarışdırılması yolu ilə qoruyan pilotsuz uçuş aparatları əleyhinə sistem - İHASAVAR, istənilən tipdə pilotsuz uçuş aparatlarının aşkarlanması və onlara verilən tapşırıqların yerinə yetirilməsinin qarşısını almaq üçün təyin olunan TUFAN-2M, maddi vəsaitlərə və resurslara qənaət etməklə şəxsi heyətin praktiki atış vərdişlərinin təkmilləşdirilməsi, minaatanın hədəfə vaxtında və dəqiq tuşlama bacarıqlarının artırılması üçün təyin olunan 60, 82 və 120 millimetrlik təlim atəş məşq qurğuları da var.

Bütün bunlar göstərir ki, son dövrlərdə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Ordumuz müasir silah-sursat, hərbi texnika ilə təmin edilir, yeni hərbi şəhərciklər inşa edilir, mövcud olanları isə ən yüksək səviyyədə yenidən qurulur. Bütün bu tədbirlər Azərbaycan dövlətinin hərbi sahənin inkişafına yüksək diqqət və qayğı ilə yanaşmasının aydın təzahürüdür.

**AZƏRTAC**

---

### Naftalan şəhərində yeni körpələr evi-uşaq bağçası binasının tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Ölkəmizdə müalicəvi turizmin inkişafında özünəməxsus yeri olan Naftalan şəhəri Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurlu icrası nəticəsində bu gün də müasir sanatoriya-kurort mərkəzi kimi sürətlə inkişaf edir. Son illərdə burada 9 yeni səhiyyə-kurort müəssisəsi yaradılmış, o cümlədən 264 yerlik “Qarabağ”, 342 yerlik “Qaşaltı” sanatoriyaları inşa olunmuş, 353 yerlik “Çinar” sanatoriyası yenidən qurulmuşdur.

Bununla yanaşı, şəhərdə bir sıra mühüm infrastruktur layihələri də yerinə yetirilmiş, Şəhər Mərkəzi Xəstəxanası, Əlillərin Bərpa Mərkəzi, Bayraq Meydanı tikilmiş, 1500 yerlik şəhər stadionu əsaslı təmir edilmiş, şəhərin su təchizatı sistemi yenidən qurulmuş, yeni avtomobil yolları çəkilmiş, genişmiqyaslı abadlıq-quruculuq işləri həyata keçirilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Naftalan şəhərində abadlıq-quruculuq işlərinin davam etdirilməsi, habelə yeni 200 yerlik körpələr evi-uşaq bağçası binasının tikintisi məqsədi ilə **qərara alıram:**

**1.** Naftalan şəhərində yeni 200 yerlik körpələr evi-uşaq bağçası binasının tikintisi üçün Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Naftalan Şəhər İcra Hakimiyyətinə 3,0 (üç) milyon manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 5 iyun 2018-ci il.**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

İcazə verin, yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə təbriklərimi çatdırım. Ölkələrimiz arasında əlaqələr 26 il bundan əvvəl diplomatik münasibətlərin qurulmasından bəri xeyli inkişaf etmişdir.

Avstriyanın Avropa İttifaqı Şurasına qarşıdan gələn sədrliyinə nəzər yetirərək mən Avropa İttifaqının Şərq Tərəfdaşlığı çərçivəsində Azərbaycan ilə davamlı və səmərəli əməkdaşlığı yüksək qiymətləndirdiyimizi və dəstəklədiyimizi vurğulamaq istərdim.

Fürsətdən istifadə edərək, bu önəmli vəzifənin uğurla icrasında Sizə ən xoş arzularımı bildirir, dərin ehtiramımı izhar edirəm.

*Səmimiyyətlə,*

**Aleksander Van der Bellen**
**Avstriya Respublikasının Federal Prezidenti**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Milli bayramınız - Respublika Günü münasibətilə Zati-alinizə və Sizin şəxsinizdə dost Azərbaycan xalqına Laos xalqı adından və şəxsən öz adımdan səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Əminəm ki, Laos Xalq Demokratik Respublikası ilə Azərbaycan Respublikası arasındakı əlaqələr xalqlarımızın maraqları, dünyada sülh və beynəlxalq əməkdaşlıq naminə daha da möhkəmlənəcək.

Fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı və ali dövləti vəzifənizdə müvəffəqiyyətlər arzulayıram.

Zati-aliləri, Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

**Bounyanq Voraçit**
**Laos Xalq Demokratik Respublikasının Prezidenti**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Milli bayramınız - Respublika Günü münasibətilə Zati-alinizə, Azərbaycan hökumətinə və xalqına Maldiv hökuməti, xalqı adından və şəxsən öz adımdan səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, Azərbaycan xalqına davamlı inkişaf və firavanlıq arzularımı çatdırıram.

*Hörmətlə,*

**Abdulla Yamin Abdul Qəyyum**
**Maldiv Respublikasının Prezidenti**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Əs-səlamu aleykum va rahmatullahi va barakatuhu.

Zati-aliləri.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan böyük sevinc hissi duyur, dost Azərbaycan xalqının rifahı naminə ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

Bu fürsətdən istifadə edərək əmin olduğumu bildirmək istəyirəm ki, prezidentliyinizin növbəti dönəmində qardaş ölkələrimiz arasında mövcud dostluq və əməkdaşlıq əlaqələri daha da genişlənəcək.

*Ən dərin hörmətlə,*

**Fuad Məsum**
**İraq Respublikasının Prezidenti**

# Azərbaycan ilə Ümumdünya Əqli Mülkiyyət Təşkilatı arasında sıx əlaqələr var

**İyunun 5-də Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov Ümumdünya Əqli Mülkiyyət Təşkilatının baş direktoru Frensis Qarri ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan Hökuməti ilə Ümumdünya Əqli Mülkiyyət Təşkilatı arasında əməkdaşlığın inkişafı məsələləri müzakirə olunub.



Baş nazir deyib ki, Ümumdünya Əqli Mülkiyyət Təşkilatı çox mühüm məsələlərlə məşğul olan bir qurumdur. Əqli mülkiyyət insanın ən böyük sərvətidir. Əsas məsələ əqli mülkiyyətdən səmərəli istifadə etməkdir. Bəşəriyyətin əqli mülkiyyətsiz gələcəyi yoxdur. “Siz dünyanın mühüm elm ocaqlarının, təşkilatlarının mükafatlarına layiq görülmüsünüz. Mən çox şadam ki, bu cür məşhur elm ocaqları arasında Azərbaycanın da ali təhsil müəssisəsi var”, - deyə Baş nazir qeyd edib.

Novruz Məmmədov vurğulayıb ki, Azərbaycan ilə Ümumdünya Əqli Mülkiyyət Təşkilatı arasında sıx əlaqələr var. Bir sıra sənədlər imzalanıb. Azərbaycanda əqli mülkiyyət haqqında qanunvericilik bazası təşkilatın dəstəyi ilə hazırlanıb. Bu, çox perspektivli sahədir və Azərbaycan bu sahəyə öz töhfəsini verir. Dövlətimizin başçısı İlham Əliyev bu sahəyə böyük diqqət göstərir. Bu diqqətin bariz nümunəsi kimi yeni yaradılan Əqli Mülkiyyət Agentliyini göstərmək olar.

Baş direktor Frensis Qarri rəhbərlik etdiyi təşkilata Azərbaycan Hökuməti tərəfindən göstərilən dəstəyə görə minnətdarlığını ifadə edib. Qeyd edib ki, o, Prezident İlham Əliyev tərəfindən bu sahəyə diqqətin şəxsən şahidi olub.

Frensis Qarri Azərbaycan Hökuməti ilə Ümumdünya Əqli Mülkiyyət Təşkilatı arasında əlaqələrin inkişafından məmnunluğunu bildirib. O, əməkdaşlığın gələcəkdə daha da genişlənəcəyinə əminliyini ifadə edib.

**AZƏRTAC**

# Azərbaycan Hökuməti ilə Ümumdünya Əqli Mülkiyyət Təşkilatı arasında Anlaşma Memorandumu imzalanıb

**İyunun 5-də Azərbaycan Hökuməti ilə Ümumdünya Əqli Mülkiyyət Təşkilatı arasında Anlaşma Memorandumu imzalanıb.**

AZƏRTAC xəbər verir ki, Memorandum Azərbaycanın Baş nazirinin müavini Əli Əhmədovun Ümumdünya Əqli Mülkiyyət Təşkilatının baş direktoru Frensis Qarri ilə görüşündə imzalanıb.



Əli Əhmədov Azərbaycanda əqli mülkiyyət sahəsinin inkişafının və bu sahədə beynəlxalq əməkdaşlığın genişləndirilməsinin prioritet olduğunu qeyd edib. Vurğulanıb ki, ölkəmiz Ümumdünya Əqli Mülkiyyət Təşkilatının həyata keçirdiyi layihələri dəstəkləyir və bundan sonra da əməkdaşlığın inkişaf etdirilməsində maraqlıdır.

Azərbaycana səfərindən məmnunluğunu ifadə edən baş direktor Frensis Qarri ölkəmizin Ümumdünya Əqli Mülkiyyət Təşkilatının reallaşdırdığı layihələrə göstərdiyi dəstəyi yüksək dəyərləndirib. Qonaq əməkdaşlığın bundan sonra da inkişafının əhəmiyyətini vurğulayıb.

**AZƏRTAC**

# Bakıda “2030 Gündəliyinin ətraf mühit aspektləri” mövzusunda Milli Gənclər Forumu keçirilib












**İyunun 5-də Bakı Konqres Mərkəzində “2030 Gündəliyinin ətraf mühit aspektləri” mövzusunda Milli Gənclər Forumu keçirilib.**

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, İDEA İctimai Birliyinin təsisçisi və rəhbəri, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) xoşməramlı səfiri Leyla Əliyeva Forumda iştirak edib.

Dünya Ətraf Mühit Günündə təşkil edilən tədbirin məqsədi gənclər arasında Dayanıqlı İnkişaf Məqsədləri (DİM), xüsusən onların ekoloji aspektləri haqqında maarifləndirmənin artırılması, eləcə də gəncləri DİM səfirləri olmağa sövq etməklə onların 2030 Gündəliyinin həyata keçirilməsində rolunu gücləndirməkdir.

İDEA İctimai Birliyinin Heyvanlara Qayğı Mərkəzinin direktoru Surxay Şükürov dünya liderləri tərəfindən Dayanıqlı İnkişaf üzrə 2030 Gündəliyinin qəbul edilməsi ilə nəticələnən BMT-nin Dayanıqlı İnkişaf Sammitinin sentyabr ayında üç illiyinin tamam olacağını xatırladaraq, bu sənədin insanlar, planet və rifah naminə fəaliyyət planı olduğunu vurğulayıb.

Heydər Əliyev Fondunun vitse-prezidenti, İDEA İctimai birliyinin təsisçisi, FAO-nun xoşməramlı səfiri Leyla Əliyeva Forumun açılış mərasimində çıxış edib.

Leyla Əliyeva planetimizin və onun təbii ehtiyatlarının mühafizəsi məqsədilə maarifləndirmə və fəaliyyətin təşviqi üçün ən mühüm gün olan Dünya Ətraf Mühit Gününü qeyd etmək üçün Forum iştirakçıları ilə birlikdə olmaqdan məmnunluğunu bildirib. “Bizim tədbirimiz bu günü qeyd etmək və ətraf mühitlə bağlı aktual məsələlər və dayanıqlı inkişaf barədə danışmaq üçün böyük imkandır”, -




deyən İDEA-nın təsisçisi vurğulayıb ki, biz vaxtın ötüb getdiyini və hərəkətə keçmək üçün yeganə zamanın indiki zaman olduğunu yadda saxlamalıyıq.

“2015-ci ildə dünya liderləri bəşəriyyətin bütün mövcud çağırışlarının həllində irəli aparan ümumbəşəri yol olan Dayanıqlı İnkişaf üzrə 2030 Gündəliyini təsdiqlədilər. Gündəlikdə 2030-cu ilədək nail olunması üçün 17 ümumbəşəri dayanıqlı inkişaf məqsədi və 196 hədəf müəyyənləşdirilib. Azərbaycanda dayanıqlı inkişaf hədəflərinin həyata keçirilməsini əlaqələndirmək məqsədilə 2016-cı ilin oktyabrında dayanıqlı inkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılarkən ölkəmiz 2030-cu il Gündəliyinə nail olmaq öhdəliyini ən yüksək səviyyədə nümayiş etdirdi. Bu gün BMT-nin 18 rezident və qeyri-rezident qurumu Azərbaycanın bu 17 məqsədə nail olmaq üçün göstərdiyi səyləri dəstəkləyir. Sevinc hissilə qeyd edirəm ki, Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərinin təşviqinə yönəlmiş bir sıra layihələrdə bizim İDEA təşkilatımız BMT ilə uğurlu əməkdaşlıq edir. Bir çox birgə təşviqat tədbirləri, o cümlədən BMT İnkişaf Proqramı, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı -FAO və UNİCEF-lə tədbirlərin həyata keçirilməsi 2018-ci ilə planlaşdırılır. Əlbəttə ki, bu böyük forum bizim əməkdaşlığımızın nəticəsidir. Ümidvaram ki, bu, ətraf mühitə dair məsələlərlə bağlı məlumatlılığı artıracaq, qlobal məqsədlərə nail olmaq üçün gənclərin səylərini birləşdirməsinə kömək edəcək. 2030-cu il Gündəliyi əslində gənclər gündəliyidir. Çünki onun inkişaf etdirilməsi üçün əsas iştirakçılar gənclərdir”, - deyə Leyla Əliyeva bildirib.

Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev 2016-cı ildə Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılmasını xatırladaraq, həmin vaxtdan bəri ölkə üçün əhəmiyyət kəsb edən, qlobal məqsəd və hədəflərə uyğun milli prioritetlərin və onlara dair göstəricilərin müəyyən edildiyini, eyni zamanda, dövlət proqramları və strategiyalarının bu məqsədlərlə uzlaşdırılmasının həyata keçirildiyini söyləyib. Qeyd edib ki, ötən il Azərbaycanda “Dünyamızın transformasiyası: 2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyi”nin icrası ilə əlaqədar ilkin addımlar haqqında Könüllü Milli Hesabat hazırlanaraq Yüksək Səviyyəli Siyasi Foruma təqdim edilib. “Dayanıqlı inkişaf - gələcək nəsillərin imkanlarını təhlükə altına qoymadan indiki dövrün ehtiyaclarını təmin edən inkişafdır”, - deyən Muxtar Babayev bildirib ki, bu inkişafın




ekoloji aspektləri okean və dəniz ehtiyatları, iqlim dəyişmələri, ətraf mühit, tullantıların idarə edilməsi, ekosistemlər və biomüxtəliflik sahələrindəki məqsədləri əhatə edir. Buna nail olunması baxımından insan və təbiət arasında münasibətlərdə balansın təmin edilməsi xüsusi əhəmiyyət daşıyır. Burada dövlət və qeyri-hökumət təşkilatlarının, biznes qurumlarının, xüsusilə də gənclərin üzərinə böyük vəzifələr düşür. Ekologiya və təbii sərvətlər naziri bu məqsədlərin həyata keçirilməsində gənclərin rolunu vurğulayıb.

“Hər bir gənc potensial milli sərvətdir”, - deyən BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisinin vəzifələrini icra edən Edvard Karvardin iqlim dəyişikliklərinin aradan qaldırılmasında gənclərin rolundan, ətraf mühitin qorunmasının təşviq edilməsinin vacibliyindən danışıb. Bu istiqamətdə Leyla Əliyevanın təsisçisi olduğu İDEA İctimai Birliyinin fəaliyyətini xüsusi qeyd edib. Diqqətə çatdırıb ki, İDEA-nın gördüyü işlərin sırasına iyunun 9-da daha biri əlavə olunacaq. Belə ki, İctimai Birliyin təşəbbüsü ilə Bakı çimərliyində ənənəvi təmizlik aksiyası keçiriləcək. Ekosistemin gücləndirilməsində, “yaşıl təşəbbüs”lərin təşviqində, ətraf mühitin qorunmasında kollektiv və fərdi iştirakın dəstəklənməsi məsələlərinə toxunan Edvard Karvardin birgə səylər nəticəsində bir çox məsələlərin həllinin mümkünlüyünü söyləyib.

Sonra BMT baş katibinin Dünya Ətraf Mühit Günü münasibətilə videomüraciəti nümayiş olunub.

Panel iclaslarla davam edən forumda “İqlim dəyişikliyi: adaptasiya və təsirlərin azaldılmasında gənclərin rolu” mövzusu ətrafında müzakirələr aparılıb. FAO-nun iqlim və ətraf mühit bölməsinin təbii ehtiyatlar üzrə mütəxəssisi Alaşiya Qordes “Dayanıqlı inkişaf nəsli: dəyişən iqlim şəraitində ərzaq təhlükəsizliyinin qorunması” mövzusu ilə bağlı fikirlərini bildirib. O, aclıqdan əziyyət çəkənlərin sayının artdığını təəssüflə qeyd edərək, bunun səbəblərini müharibə və iqlim dəyişikliyi ilə əlaqələndirib. Vurğulayıb ki, gənclər ərzaq təhlükəsizliyi məsələlərinin həllində daha fəal olmalıdırlar.

UNDP GEF Kür II Layihəsində baş texniki məsləhətçi və regional layihə koordinatoru Meri Mətyus “Su, iqlim dəyişikliyi və gələcəyimiz” mövzusunda məruzə ilə çıxış edib. Bildirib ki, əslində bu Forum vasitəsilə gənclərə suallar ünvanlanır və məqsəd onları həmin suallara cavab tapmağa yönəltməkdir. Meri Mətyus içməli su qıtlığı, suya qənaət olunması ilə bağlı fikirlərini bölüşüb. O, su ehtiyatları ilə bağlı böyük çağırışlar olduğunu qeyd edərək, gəncləri bu problemlərdən çıxış yolu tapmağa çağırıb.

Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov Azərbaycan gənclərinin iqlim dəyişikliyi ilə mübarizədə potensial rolundan danışıb. Gənclərin ölkəmizdə çoxluq təşkil etdiyini qeyd edən Fərid Cəfərov onların ətraf mühitin qorunması istiqamətində görə biləcəyi işlərə nəzər salıb, Gənclər Fondunun ekoloji layihələrin dəstəklənməsi ilə bağlı tədbirlərini diqqətə çatdırıb. Bildirib ki, fond bu sahədə iki istiqamət üzrə - gənclərin ekoloji maarifləndirilməsi və onların iştirakı ilə ekoloji problemlərin aradan qaldırılması istiqamətlərində fəaliyyət göstərir.

Forumda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Qeyd olunub ki, davamlı inkişaf bir-birinə bağlı üç təməl elementini - iqtisadiyyat, cəmiyyət və ətraf mühiti əhatə edir. 2030 Gündəliyi gənclərin gündəliyidir. Belə ki, dayanıqlı inkişaf anlayışı gələcək nəsillərin sərvətlərinə xələl gətirmədən hazırkı nəslin rifahının yaxşılaşdırılmasını nəzərdə tutur. Eyni zamanda, bu Gündəlik gəncləri inkişafın əsas aparıcı qüvvəsi kimi müəyyənləşdirib. Lakin bunun üçün onlara öz potensialını reallaşdırmaq imkanı yaradılmalıdır.

“Biomüxtəlifliyin qorunması: Azərbaycan üçün əhəmiyyəti nədir?” mövzusunda panel iclasın iştirakçıları flora və fauna növlərinin mühafizəsi üzrə səylərin vacibliyi və Azərbaycanda məhvolma təhlükəsi ilə qarşılaşan növlərlə bağlı vəziyyət haqqında danışıblar. Dünya Vəhşi Təbiət Fondunun (WWF) Azər-




baycan nümayəndəliyinin direktoru Elşad Əsgərov “Təbii dəyərlər. Azərbaycanda təbiəti mühafizənin tarixi və WWF-in töhfəsi”, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin biomüxtəliflik departamentinin baş məsləhətçisi Rəşad Allahverdiyev “Azərbaycanda xüsusi mühafizə edilən təbiət əraziləri şəbəkəsinin inkişaf etdirilməsi üzrə səylər”, İDEA İctimai Birliyinin baş layihə koordinatoru Afaq Rizayeva “İDEA-nın Qafqaz regionunda biomüxtəlifliyin qorunması üzrə səyləri” mövzularında məruzələrlə çıxış ediblər.

“Davamlı enerji: insanları, iqtisadiyyatı və planeti transformasiya edərkən” mövzusunda panel iclasda Dünya Resurslar İnstitutunun (WRİ) Dayanıqlı şəhərlər üzrə Türkiyə ofisinin səmərəli şəhər və iqlim bölməsinin rəhbəri Məltəm Bayraktarın “Enerji, cəmiyyət və davamlılıq”, Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin texniki tənzimləmə şöbəsinin müdiri Sənan Abbasovun “Azərbaycanda bərpa olunan enerji mənbələri: nailiyyətlər və perspektivlər”, UNDP Azərbaycan, NAMA layihəsinin rəhbəri Nazim Məmmədovun “Binalarda enerji səmərəliliyi” mövzularında məruzələri dinlənilib.

**AZƏRTAC**

*“China Daily”:*

# AZƏRTAC Çin KİV-ləri ilə əməkdaşlığı genişləndirir

**Azərbaycan Dövlət İnformasiya Agentliyi - AZƏRTAC Çinin kütləvi informasiya vasitələri ilə əməkdaşlığı genişləndirir.**

Bu barədə Çinin nüfuzlu “China Daily” qəzetində dərc olunan məqalədə söz açılır. Məqalədə AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanovun Şanxay Əməkdaşlıq Təşkilatının birinci Media Sammitində iştirak etmək üçün Pekinə səfəri çərçivəsində “China Daily” qəzetinin redaksiyasını ziyarət etməsi və nəşrin rəhbərliyi ilə görüşü barədə ətraflı məlumat verilir. Qeyd olunur ki, hazırda Dünya Xəbər Agentlikləri Konqresinə və Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatına (OANA) rəhbərlik edən AZƏRTAC 7 dildə, o cümlədən Çin dilində xəbərlər yayır. Bakıdakı Konfutsi İnstitutu agentliyin Çin dilində xəbərlərinin hazırlanmasına və əməkdaşlara Çin dilinin öyrədilməsinə dəstək verir.




Qəzet AZƏRTAC-ın İdarə Heyəti sədrinin sözlərinə istinad edərək vurğulayır ki, Azərbaycan ilə Çin arasında münasibətlərin müxtəlif istiqamətlər üzrə inkişafı iki ölkənin kütləvi informasiya vasitələrinə də əməkdaşlığı genişləndirmək üçün impuls verir. Bildirilir ki, AZƏRTAC-ın Sinxua agentliyi ilə yaxşı əlaqələri var. Çinin digər KİV-ləri, o cümlədən “China Daily” qəzeti ilə əməkdaşlığın yaradılması və inkişafı tərəflər üçün faydalı olacaq.

Məqalədə AZƏRTAC ilə “China Daily” arasında xəbər və təcrübə mübadiləsi, birgə layihələrin icrası, internet səhifələrində qarşılıqlı olaraq banerlərin yerləşdirilməsi və digər istiqamətlər üzrə əməkdaşlığa dair razılıq əldə olunduğu qeyd edilir.

Xatırladaq ki, “China Daily”nin ümumilikdə 100 milyondan çox oxucu auditoriyası var və dünyada ingilis dilində nəşr olunan ən nüfuzlu qəzetlərdən biridir. O, Çində internet səhifəsi açılan ilk kütləvi informasiya vasitəsidir, xarici ölkələrdə böyük populyarlıq qazanıb.

**AZƏRTAC**

# Azərbaycan-Avropa İttifaqı biznes forumu keçirilib






**İyunun 5-də Bakıda 4-cü Azərbaycan-Avropa İttifaqı (Aİ) biznes forumu keçirilib.**

**Əvvəlki illərdə olduğu kimi, bu biznes forumuna da maraq böyük olub. İqtisadiyyat Nazirliyinin, Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyi və Alman-Azərbaycan Xarici Ticarət Palatasının birgə təşkilatçılığı ilə keçirilmiş tədbirdə rəsmi şəxslər, beynəlxalq təşkilatların, səfirliklərin, ticarət palatalarının nümayəndələri, eləcə də Azərbaycandan 300-dən çox, Avropa İttifaqına daxil olan ölkələrdən isə 100-dən artıq iş adamı iştirak edib. Ümumilikdə biznes foruma 800-ə yaxın iştirakçı qatılıb.**

**Azərbaycanda biznes mühiti, ölkəmizdə həyata keçirilən islahatlar barədə işgüzar dairələrin məlumatlandırılması, Azərbaycan və Avropa İttifaqı iş adamları arasında əməkdaşlığın genişləndirilməsi imkanlarının geniş müzakirə edildiyi forumda ölkəmizdə həyata keçirilən iqtisadi islahatlara dair plenar sessiya, kənd təsərrüfatı və qida, tikinti və maşınqayırma, nəqliyyat və logistika, İKT və elektron ticarətə dair 4 panel iclas, iş adamları arasında ikitərəfli görüşlər keçirilib.**

Tədbirdə çıxış edən iqtisadiyyat nazirinin müavini Rüfət Məmmədov artıq ənənəvi olaraq keçirilən biznes forumdan keçən müddətdə Azərbaycan-Avropa İttifaqı əlaqələrində, eləcə də dövlətimizin sosial-iqtisadi həyatında bir sıra mühüm yeniliklərin baş verdiyini diqqətə çatdırıb. Vurğulanıb ki, Azərbaycanın xarici siyasətində Avropa İttifaqı ilə əməkdaşlığın inkişaf etdirilməsi mühüm istiqamətlərdəndir və əlaqələr həm siyasi, həm də iqtisadi, o cümlədən enerji, ticarət, investisiyalar və digər sahələrdə inkişaf edir. Azərbaycan Respublikasının Prezidenti 2017-ci ildə, ümumilikdə isə son 10 ildə Avropa İttifaqına 7 səfər edib, rəhbər şəxslərlə görüşlər keçirib və müzakirələr aparıb. Avropa İttifaqının bir sıra qurumlarının rəhbər şəxsləri ölkəmizdə səfərdə olublar. Azərbaycan və Aİ arasında müxtəlif sahələri əhatə edən hüquqi baza yaradılıb.

Rüfət Məmmədov qeyd edib ki, hazırda Azərbaycan iqtisadiyyatının dayanıqlı inkişafının təmin olunması məqsədilə iqtisadi islahatlar davam edir. Artıq Qida Təhlükəsizliyi, Kiçik və Orta Sahibkarlığın İnkişafı, Turizm, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət agentlikləri, İpoteka və Kredit Zəmanət Fondu yaradılıb. Qarşıda duran əsas vəzifələrdən biri qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi, qeyri-neft ixracının artırılması, ixracın diversifikasiyasıdır və bu məqsədlə biznes mühitinin yaxşılaşdırılması, sahibkarlığın inkişafına dəstək göstərilməsi, tranzit imkanlarından səmərəli istifadəyə dair müxtəlif tədbirlər həyata keçirilir. Yoxlamaların dayandırılması 2021-ci ilə kimi uzadılıb, “Lisenziyalar və icazələr” portalı istifadəyə verilib. Hazırda qanunvericilik təkmilləşdirilir, inzibati prosedurlar sadələşdirilir, elektron xidmətlərin tətbiq dairəsi genişləndirilir, vergi və gömrük sahəsində islahatlar aparılır.

Sonra Alman-Azərbaycan Xarici Ticarət Palatasının şöbə müdiri Nigar Bayramlı Aİ-nin Azərbaycanın biznes mühitinə dair 2018-ci il üzrə hesabatını təqdim etdi. Vergilər naziri Mikayıl Cabbarov, Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov və Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev çıxışlarında hesabatda öz əksini tapmış məsələlərlə bağlı fikirlərini bölüşərək müvafiq sahələrdə həyata keçirilən islahatlar və görüləcək işlər barədə məlumat verdilər.

Azərbaycan-Avropa İttifaqı biznes forumu panel iclaslarla öz işini davam etdirib.

**Kamil İSMAYILOV,**
**Foto S.MƏMMƏDİNDİR.**
**“Respublika”.**

# “Azərkitab”ın məqsədi kitabsevərlərə nümunəvi xidmətdir

## KİTAB TƏBLİĞATI MƏRKƏZİ

*Mütaliəsi zəif, kitabdan uzaq insan dünyanın ən yoxsul varlığı sayılır. Məşhur Roma yazıçısı Senesa deyib ki, “Kitabsız yaşamaq kar, kor, dilsiz yaşamaqdır”. Həqiqətən də kitab insan həyatında, onun formalaşmasında böyük rola malikdir. Ötən il Bakı şəhərində öz sahəsinə və imkanlarına görə ən böyük məkan, “Azərkitab” Kitab Təbliğatı Mərkəzi oxucuların istifadəsinə verildi. Bu münasibətlə mərkəzin layihə rəhbəri Sabir Həsənovun AZƏRTAC-a müsahibəsini təqdim edirik:*

**—Kitab mərkəzi açmaq ideyası hansı zərurətdən yarandı?**

—“Azərkitab”ın mənəvi varisiyəm. “Azərkitab” kitab birliyi ilk dəfə 1924-cü ildə fəaliyyətə başlayıb və 2000-ci ildə bu müəssisənin fəaliyyətinə bir ticarət qurumu olaraq xitam verilib. Bu gün ölkədə kitab mağazalarının sayı kifayət qədər deyildir, nəşr edilən kitabların sayı çox azdır. Ölkəmizdə oxu qabiliyyəti olan insanların sayı beş milyona çatmasına baxmayaraq, təəssüf ki, Azərbaycanda kitab mağazalarının sayı çox azdır. Məhz bu səbəblərə görə, insanlarımıza, xüsusən də gənclərimizə kitab sevgisini aşılamaq üçün kitab mərkəzini yaratmağı qərara aldım.



“Azərkitab” Kitab Təbliğatı Mərkəzi dörd mərtəbədən ibarətdir. Burada oxucularımız hər sahədən kitablar əldə edə bilərlər. Eyni zamanda, mərkəzdə onların istirahəti üçün hər cür şərait yaradılacaq. Mağazamızın 1-ci mərtəbəsində ziyalılar evi olacaq, 2-ci və 3-cü mərtəbəsi kitab satışı üçün nəzərdə tutulub. 4-cü mərtəbəsində isə qalereya və konfrans zalı yerləşir ki, burada oxucuların yazarlarla, şairlərlə, görkəmli elm xadimləri ilə görüşləri keçirilir.

**—“Azərkitab” nəşriyyatlarla işini necə quracaq?**

—Bildiyimiz kimi, ölkəmizdə nəşriyyatların böyük bir qismi, yalnız müəllif sifarişi əsasında fəaliyyət göstərir. Kitab bazarını, oxucu tələbatını nəzərə alaraq kitab tərtib edib istehsal edən nəşriyyatların sayı birincilərə nisbətən azdır. Biz fəaliyyətimiz zamanı çalışacağıq ki, müəllif kitabları ilə bərabər, oxucu tələbatına uyğun olan nəşrlərin hazırlanmasını və çap edilməsini nəşriyyatlara sifariş edək. Hazırda bununla bağlı tərəfdaş nəşriyyatlarımızın bir qismini müəyyən etmişik. Bir sözlə, oxucu tələbatına cavab verə biləcək bütün nəşriyyatlarla əməkdaşlıq etmək niyyətindəyik.

**—Kitab mərkəzində hansı sahələrə üstünlük veriləcəkdir?**

—Ümumiyyətlə, “Azərkitab” ixtisaslaşmış kitab mağazası olacaq. Burada oxucular dünya ədəbiyyatını, tərcümələri çox asanlıqla əldə edə biləcəklər. Hazırda Azərbaycanda tibb ədəbiyyatı, elmi, hüquqi, texniki ədəbiyyatların tərcüməsi olduqca bərbad vəziyyətdədir. Ümumiyyətlə, Azərbaycanın özündə belə kitabların nəşri, satışı zəif inkişaf edir. Bizim məqsədlərimizdən biri də dünya ədəbiyyatının Azərbaycana gəlişini təmin etməkdir. Çalışacağıq bu sahənin inkişaf etdirilməsinə xidmət edək. Oxucular belə kitabları da məhz bizim mərkəzdən əldə edə bilərlər.

**—Gələcəkdə mərkəzə oxucu cəlb etmək üçün hansı layihələri reallaşdıracaqsınız?**

—Çalışırıq ki, orta məktəblərlə, ali məktəb rəhbərləri ilə əlaqə saxlayaq. Orada təhsil alan şagirdlərin, tələbələrin bizim kitab evi ilə tanış olması üçün onların ekskursiyalarını təşkil edək. Bunun üçün hətta biz avtobuslar da təşkil etmişik. Bundan əlavə, biz aztəminatlı ailələri, məcburi köçkün və şəhid ailələrini də unutmamışıq. Belə ailələrin təhsil alan uşaqlarını dərs vəsaitləri, dərsliklərlə təmin etməyi düşünürük.

**—Tərcümə məsələləri və yeni tərcümə kitabları barədə nələr planlaşdırılır?**

—Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Tərcümə Mərkəzində görüşlərimiz olub və bir sıra layihələr həyata keçirməyi düşünürük. Bir çox nəşriyyat evləri ilə danışıqlar aparılıb. “Təhsil”, “Yazıçı”, “Nərgiz” və digər nəşriyyatlarla əməkdaşlıq etmək niyyətindəyik. Bundan başqa mərkəzimizin nəzdində qalereya da fəaliyyət göstərir ki, biz burada gənc istedadların rəsmlərinin, əl işlərinin sərgisini açacağıq, bu əsərlərin satışını həyata keçirəcəyik. Bu xidmətimizin məqsədi gənc istedadları üzə çıxarmaq və onlara kömək etməkdir.

**—Mərkəzdə balaca oxucularımız nəzərə alınıbmı, eləcə də orta məktəb şagirdləri burada özlərinə lazım olan dərslikləri əldə edə biləcəklərmi?**

—Mərkəzin ikinci mərtəbəsində “Uşaq aləmi” zalı var. Mərkəzin bu guşəsində uşaqlar sanki nağıllar aləminə səyahət edəcəklər. Burada uşaqların nağıllardan tanıdıqları personajlara rast gəlmək olacaq. Bununla yanaşı, burada canlı ünsiyyət də olacaq. Yəni “Piri baba”nın müşayiəti ilə həftədə bir neçə dəfə nağıl günləri təşkil olunacaq. Bununla yanaşı, uşaqlara animasiya filmləri də göstəriləcək.

Bu guşənin yaradılmasında məqsəd uşaqlarda hələ uşaq vaxtından ədəbiyyata, milli dəyərlərimizə, qəhrəmanlarımıza qarşı sevgi və maraq oyatmaqdır.

## OXUCULARIN İSTİRAHƏT GUŞƏSİ




*“Azərkitab” Kitab Təbliğatı Mərkəzinin şəhərin mərkəzində yerləşən binası sanki göz oxşayır, ətrafa xüsusi bir gözəllik verir. “Azərkitab” Kitab Təbliğatı Mərkəzinin layihə rəhbəri Sabir Həsənov gələcək planlar barədə söhbət zamanı dedi:*

– Ümummilli liderimiz, müstəqil Azərbaycan dövlətinin banisi Heydər Əliyevin belə bir gözəl kəlamı var: “Hər birimiz ilk növbədə ancaq kitab vasitəsilə təhsil, elm almışıq, həyatda yaşamağa, fəaliyyət göstərməyə hazırlaşmışıq. Ona görə də hər birimiz kitablara borcluyuq”.

Bu, doğrudan da belədir. Təsadüfən “kitab bilik mənbəyidir”, - deyilməyib. Kitab insanları zənginləşdirən, kamilləşdirən bir vasitədir. Fikrimcə, kitab insanların qaranlıq, zülmətli yollarına işıq saçan sönməz çıraqdır. Həyatımın düz 35 ili kitab işi ilə bağlı olub. Və nə vaxtsa həyatımı kitabsız, elmsiz təsəvvür edə bilmirəm. 1924-cü ildə fəaliyyətə başlayan “Azərkitab” Kitab Birliyinin mənəvi varisidir. Bu qurumun yenidən bərpa edilərək həyata qaytarılması məndə bir arzu olaraq yaşayırdı. Və nəhayət uzun əziyyətdən sonra bu ideyanı ümummilli liderimiz Heydər Əliyevin 94 illiyi ərəfəsində reallaşdırdım. Buna görə də özümü çox xoşbəxt hiss edirəm. Yeri düşmüşkən, fürsətdən istifadə edib bir məsələyə toxunmaq istərdim. İstərdik ki, digər əlamətlər günlər olduğu kimi, 10 may kitab günü kimi təsis olunsa, yaxşı olardı. Bu, təkcə mənim yox, bütün kitabsevərlərin ürəyincə olardı. Məqsədimiz kitaba dönmək, gənclərimizin maarifləndirilməsində, nitqinin formalaşdırılmasında mütaliənin rolunu artırmaq və onları pis vərdişlərdən çəkindirməkdir. Onu da qeyd edim ki, bir ideya olaraq layihənin reallaşmasında mənə dəstək olan Təhsil Nazirliyinin, Mədəniyyət Nazirliyinin, “Accessbank” ASC-nin rəhbərliyinə təşəkkürümü bildirirəm.

“Azərkitab” kitab təbliğatı ilə bağlı orta və ali məktəb rəhbərləri ilə danışıqlardan sonra şagird və tələbələrin kitab evi ilə tanışlıq üçün ekskursiyalar təşkil etmişik. Aztəminatlı ailələri, məcburi köçkün və şəhid ailələrini də diqqət mərkəzində saxlayırıq. Belə ailələrin təhsil alan övladları üçün dərs vəsaitləri, dərsliklərlə təmin etməyi qarşımıza məqsəd qoymuşuq.

Mərkəzimizin nəzdində qalereya da fəaliyyət göstərir ki, biz burada gənc istedadların rəsmlərinin, əl işlərinin sərgisini və bu əsərlərin satışını həyata keçiririk. Bu xidmətimizin əsas məqsədi gənc istedadları üzə çıxarmaq və onlara kömək etməkdir. Mərkəzimizin ikinci mərtəbəsində “Uşaq aləmi” zalı da fəaliyyətdədir. Mərkəzin bu guşəsində uşaqlar sanki nağıllar aləminə səyahət edəcəklər. Həftədə bir neçə dəfə nağıl günləri təşkil olunacaq. Bununla yanaşı, animasiya filmləri də göstəriləcək. Bu guşənin yaradılmasında əsas məqsəd uşaqlara ədəbiyyatımıza, milli dəyərlərimizə, milli qəhrəmanlarımıza qarşı sevgi və maraq oyatmaqdır.

“Azərkitab” daha bir mühüm məsələyə də öz fəaliyyətində xüsusi yer ayıracaq. Bu Dağlıq Qarabağ və digər hadisələrlə bağlı tarixi həqiqətlərin vaxtında dünyaya yayılması ilə bağlıdır. Nankor ermənilər tərəfindən xalqımızın başına gətirilən faciələr barədə dünya ictimaiyyətinə məlumatları çatdırmağı özümə borc bilirəm. Kitab mərkəzi tərəfindən bu istiqamətdə də məqsədyönlü işlər həyata keçiriləcək. Həmçinin Mərkəzin saytı da fəaliyyət göstərəcək. Oxucular, həmçinin sosial şəbəkələrdə mərkəzin fəaliyyətindən xəbər tuta biləcəklər. Burada satışda olan bütün növ kitabların internet üzərindən “online” satışı da reallaşdırılacaq, oxucuların sifarişləri qəbul olunacaqdır. Oxucular da öz istək və təkliflərini bizə bildirsələr, daha yaxşı olardı. Bu mənada ki, onlar mərkəzdə daha nələri görmək istərdilər.

Qarşıda çox böyük planlarımız vardır. İlk olaraq Bakı şəhərindən başlayaraq bir neçə mərkəzi yerdə filiallarımızı açmaq istəyirik. Artıq bununla bağlı bizə çoxlu müraciətlər, zənglər daxil olur. Həmçinin, ölkəmizin iri şəhərlərində—Sumqayıtda, Lənkəranda, Gəncədə və s. yerlərdə də filiallarımızın fəaliyyətini nəzərdə tuturuq. Əgər bu nəzərdə tutduğumuz layihələri reallaşdıra bilsək, yeni iş yerlərinin açılmasına da öz müsbət təsirini göstərəcək.

“Azərkitab” böyük marağa, sevincə səbəb olub. Çünki ona ən çox ehtiyac olan bir zamanda bu Mərkəz fəaliyyətə başladı. İnanırıq ki, “Azərkitab” paytaxt sakinlərinin və qonaqların mütəmadi olaraq müraciət etdikləri və üz tutduqları ünvanlardan birincisi olacaqdır.

**Müşfiq MİRZƏ,**
**“Respublika”.**




## ƏN BÖYÜK MƏNƏVİYYAT OCAĞI

Universitet illərində və sonra özümü biznesin bir neçə sahəsində sınadım və uğurlu nəticələr əldə etdim. Ancaq “Azərkitab - Kitab Təbliğatı Mərkəzi”nə rəhbərlik etmək mənim üçün digər təkliflərdən fərqli idi. Ulu öndər Heydər Əliyev demişkən, həyatda bütün uğurlarımıza görə kitaba borcluyuq. Kitab bizim mənəvi dəyərlər sistemimizin mərkəzindədir və buna sadəcə biznes kimi baxmaq olmaz. Bəzi menecment dərsliklərində “nəyin bahasına olursa-olsun uğur əldə etmək” və ya “uğurlu nəticələr vasitəni doğruldur” kimi konsepsiyalar burada qəbuledilməzdir. Bu işi sevdim və “Azərkitab” həyatımın ən böyük mənəviyyat imtahanına çevrildi. Bu gün “Azərkitab”da yüksək peşəkarlardan ibarət kollektiv formalaşıb. Kitab mədəniyyətinin bütün istiqamətlərində geniş fəaliyyət göstərməkdəyik. Artıq paytaxt ziyalılarının tanıdığı, sevdiyi bir mədəniyyət ocağı kimi ad qazanmışıq. Planlarımız uğurlarımızdan daha da artıqdır.



Azərbaycan Prezidenti cənab İlham Əliyevin imzaladığı regionların inkişafı üzrə uğurlu Dövlət Proqramı çərçivəsində rayonlarımızın siması köklü şəkildə dəyişmiş, gözəlləşmiş, bölgələr iqtisadi inkişaf yoluna qədəm qoymuşdur. Respublikamızın sənayeləşmə prosesinin sürətlə həyata keçirilməsi müstəvisində hər rayon mərkəzində, heç olmasa, “Azərkitab”ın bir kitab evi və ya kitab mərkəzinin açılmasını, kitab yayımının təbliğinin, təşkilinin təmin olunması ən böyük arzumuzdur. Belə ki, kitab mərkəzləri milli ideologiyanın təbliğat vasitəsidir və təsirli informasiya xidməti göstərməyə qadirdir.

Hazırda ölkədə 400-dən çox nəşriyyat kitab istehsalıyla məşğuldur. Hər bir nəşriyyat öz məhsullarını yayım etmək məqsədilə bu və ya digər şəkildə fəaliyyət göstərir. Bu fəaliyyətin nəzəri əsası çox zaman nəşriyyatın fəaliyyət strategiyasından asılı olur. Nəşriyyatlar özlərinin bu sahədəki fəaliyyətlərini daha uğurla həyata keçirmək məqsədilə müxtəlif üsullardan, metodlardan, kitabçılıq işinin zəruri vasitələrindən istifadə etməyə çalışmışlar. Kitabın mövzusunu, məzmununu, ideyasını, oxucuya təsirini nəzərə almaqla onun təbliği və yayılması üçün ən vacib vasitələrdən istifadə edilməsi bütövlükdə nəşriyyatın imicinə müsbət təsir göstərir. Mən hesab edirəm ki, kitabın yazılmasından, çapından, yayılmasından tutmuş oxucuya çatana qədər keçdiyi mərhələ ciddi nəzarət altında olmalıdır. Kitab siyasi, ideoloji, elmi və sosial təsir gücünə malik bir vasitədir və mütəxəssislər bunu yaxşı başa düşürlər. “Azərkitab” bu istiqamətdə nəşriyyatların etibarlı tərəfdaşı və Azərbaycan kitabının dünyaya açılan aynası olmaq iddiasındadır. Biz inanırıq ki, yaxın illərdə “Azərkitab” Qarabağda və digər rayonlarımızda öz şöbələrini açacaq.

**Misirxan HƏSƏNOV,**
**“Azərkitab - Kitab Təbliğatı Mərkəzi”nin direktoru.**

# “AZƏRKİTAB” VƏ AZƏRBAYCANDA KİTAB YAYIM MƏDƏNİYYƏTİ

**2017-ci ilin may ayında “Azərkitab”ın yenidən və möhtəşəm açılışı bütün kitabsevərlər kimi bizi də sevindirdi. Xalqımız tarixən kitab və kitabxanaları yüksək qiymətləndirib. Məhz bu səbəbdəndir ki, Azərbaycanın çox zəngin kitab və kitabxana mədəniyyəti mövcud olmuşdur. Kitab böyük qüvvədir.**

Bəşər mədəniyyətinin inkişafının əsas vasitəsi olan kitab, cəmiyyətin yaranmasının erkən dövrlərində meydana gəlmiş, zəmanəmizə qədər cəmiyyətlə birgə addımlamış, formalaşmış, bəşəriyyətin yaddaşına çevrilmişdi. Məhz cəmiyyət maddiləşmiş bu yaddaş (kitab) vasitəsilə bəşəriyyətin yaratmış olduğu bilikləri nəsildən-nəsilə ötürməyə nail olmuşdur. Kitab cəmiyyətin maddi və mənəvi həyatını əks etdirməklə, sosial həqiqətin, obyektiv və subyektiv hadisə kimi cəmiyyət elminə: iqtisadiyyata, siyasətə, mədəniyyətə, əxlaqa, tərbiyə və təhsil sisteminə ciddi təsir göstərmiş, bəşər mədəniyyətinin təşəkkül və formalaşmasında yaxından iştirak etmişdir. Mədəni insan cəmiyyətinin əlifbanı yaratması, kitabın meydana gəlməsi qədim şumerdən başlayaraq bu günə qədər davam edən informasiya inqilabının əsasını qoydu. Müstəqillik illərində kitab yayım mədəniyyəti Azərbaycanın həqiqi mədəni simasını ifadə etməyə başladı. Müstəqilliyin əldə olunması ilə Azərbaycanda kitabçılıq fəaliyyəti keyfiyyətcə yeni mərhələyə keçdi. Əlifba islahatı kitab məhsulunun daxili bazarda böyük bir boşluğunu yaratdı. Az bir müddətdə ciddi islahatlara ehtiyac yarandı. 90-cı illərdə yaranmış və artan kitab məhsuluna ehtiyac bir tərəfdən dövləti bu istiqamətdə maliyyə dəstəyinə təşviq edirdi, digər tərəfdən miras qalmış kitab mağazaları özəlləşdirilərək fəaliyyət istiqamətlərini dəyişirdi. Yeni mexanizmlər tətbiq etmək tələb olunurdu. Kitab məhsulunun qıtlığı ölkənin təhsil sisteminə, şəxsi mütaliəsinə, mütəxəssislərin yetişdirilməsinə mənfi təsir göstərməklə yanaşı etnomədəni mühitin formalaşmasına da mənfi təsir edirdi. Bu şəraitin düzgün qiymətləndirilməsi nəticəsində Azərbaycan Prezidenti məktəb dərsliklərinin dövlət hesabına çap edilərək məktəblilərə pulsuz verilməsi, Azərbaycan və dünya ədəbiyyatı nümunələrinin dövlət hesabına çap edilərək kitabxanalara pulsuz paylanması ilə əlaqədar həyata keçirdiyi tədbirlər respublikada kitabla əlaqədar gərginliyi aradan qaldırdı və 2000-ci illərdən başlayaraq strukturlaşmış kitab yayım münasibətləri formalaşmağa başladı. Tədris ədəbiyyatının dövlət tərəfindən pulsuz çap etdirilməsi həm kitab bazarındakı gərginliyi aradan götürmüş, həm də nəşriyyatlara sabit sifarişlərlə təmin edərək onların maddi-texniki bazasını gücləndirmişdir.

Respublika Prezidentinin dünya ədəbiyyatı klassiklərinin əsərlərini latın qrafikası ilə Azərbaycan dilində çap etdirilməsi ilə əlaqədar sərəncamı və bu sahəyə ayrılmış maliyyə vəsaiti mütaliə imkanlarını genişləndirmiş, mövcud olan boşluğu doldurmaq istiqamətində faydalı olmuşdur.

Hazırda Azərbaycanda kitab yayımının müasir vəziyyətini əsasən iki istiqamətdə müəyyənləşdirmək olar:

1. Ölkədaxili kitab bazarının formalaşdırılması ilə kitab-informasiya ehtiyaclarının ödənilməsi.

2. Milli kitab-informasiya məhsulunu qlobal informasiya məkanına təqdim etməklə yanaşı qlobal kitab-informasiya məhsullarını Azərbaycan istehlakçılarının istifadəsinə vermək.

“Azərkitab” bu gün kitab yayımı sahəsində bir sıra ciddi problemlərin tənzimlənməsini üzərinə götürə bilər. Onlardan bəzilərini araşdırmağa çalışacaq. İndiki şəraitdə mütəxəssisləri narahat edən məsələlərdən biri oxucu ilə müəllif arasında əlaqənin pozulmasıdır. Nəşriyyat oxucu istiqamətində nəşriyyatların fəaliyyəti istehlak bazarının dərindən öyrənilməsini tələb edir. Bazarın öyrənilmə dərəcəsi risklərin faizini müəyyənləşdirir. Əhalisinin sayı az olan ölkələrdə istehlak bazarına xidmət edən nəşriyyatların risk faizi yüksəkdir. Əhalinin sayı, təhsil səviyyəsi, sənayeləşmə və şəhərlərin sayı kitabların tirajını müəyyənləşdirən əsas elementlərdir.

Bu gün kitab nəşri və yayımı istiqamətində zəngin dünya təcrübəsini öyrənərək kitab yayımının tənzimlənməsi, nəşriyyatların kitab məhsulunun qeydiyyata alınmasını, nəşriyyatların fəaliyyətinin monitorinqini, öhdəçiliyi olan məcburi nüsxələri müəyyən olunmuş kitabxanalara təqdim etmədiyi halda məhsulunu bazara çıxara bilməməsi, müəllif hüquqlarına riayət edilməsi, istehlak bazarını öyrənmək, müəlliflərlə ikitərəfli və çoxtərəfli müqavilə münasibətlərinə daxil olmaq kimi vəzifələri öz üzərinə götürə bilər. Azərbaycanda oxucu istehlakının böyük bir hissəsi orta məktəblər üçün dərsliklərin nəşridir ki, bu problem ölkədə böyük uğurla öz həllini tapmışdır.

İkinci mərhələdə bu işlər ali məktəblər səviyyəsində tətbiq olunmalı idi. Çünki ali məktəb dərslikləri unikal hadisədir. Bu nəşrlərə tələblər yüksək olsa da, onların istehlakı az, kommersiya əhəmiyyəti isə yox dərəcəsindədir. Ali məktəb dərslikləri predmetdən asılı olaraq hər 3-5 ildə baş verən dəyişikliklər və elmi yeniliklərlə əlaqədar yeniləşmək məcburiyyətindədir.

Nəzərə almaq lazımdır ki, Azərbaycanda ali məktəb dərsliklərinin tirajı orta hesabla maksimum 200-300 nüsxə planlaşdırılır. Bu kitabların potensial alıcısı isə əsasən tələbələrdir ki, onların da alıcılıq qabiliyyəti ənənəvi olaraq aşağıdır. Bu istiqamətdə də “Azərkitab” ali məktəblərin tədris ədəbiyyatı sahəsində kooperasiya və inteqrasiya fəaliyyətini uğurla üzərinə götürə bilər.

“Azərkitab” bu gün Azərbaycanda dövriyyədə olan çap məhsulunun ümumi statistikası, o cümlədən ayrı-ayrı dillər üzrə statistikası, geniş oxucu kütləsinin kitab təminatı səviyyəsi, mütaliənin məzmunu və keyfiyyəti sahəsində sistematik sosioloji sorğular apara bilər, eləcə də “Azərkitab” kitab nəşri və yayımı sahəsində tənzimləyici və sifarişci kimi iştirak edir, kitab bazarında vaxtaşırı monitorinqlər, layihə və qrantların hazırlanmasını həyata keçirə bilər. Azərbaycanın milli kitab sərvətini toplayan, mühafizə edən və gələcək nəsillərə çatdıran kitabxanalarla “Azərkitab”ın əməkdaşlığı məzmunlu komplektləşməni təmin edə bilər. Eləcə də yüzillərlə Azərbaycanda formalaşmış multikultural dəyərlərin öyrənilməsi və təbliği sahəsində “Azərkitab” mühüm rol oynaya bilər.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev M.F.Axundov adına Milli Kitabxanada çıxışı zamanı kitab nəşrini təşviq etmək, bu işə xeyriyyəçi insanları cəlb etməyi tövsiyə edirdi. O deyirdi: “Azərbaycan xalqının milli sərvəti və intellektual mülkiyyəti, eyni zamanda, Azərbaycan ədəbiyyatıdır, mədəniyyətidir... Bizim mənəvi potensialımız - ədəbiyyatımız, mədəniyyətimiz, intellektual potensialımızın əsasını təşkil edir”.

Kitab yayımı Sovet İttifaqında ideoloji fəaliyyət hesab edilirdi. Demokratik cəmiyyətdə isə ictimai fəaliyyətdir və bir sıra ölkələrdə hətta dövlət əhəmiyyətli fəaliyyət sahəsi hesab edilir. Hər hansı bir ölkədə kitab mağazasına girməklə həmin ölkənin elmi və bədii ədəbiyyatının real mənzərəsini, nəşriyyat fəaliyyətinin genişliyini, poliqrafiya imkanlarının keyfiyyətini və kitab yayım mədəniyyətini görmək və qiymətləndirmək olar. Bu baxımdan “Azərkitab” Azərbaycanda kitab yayım mədəniyyətinin layiqli təmsilçisidir. Bir sözlə, kitab yayımı mədəniyyətdir. Xalqımızın ümummilli lideri Heydər Əliyevin dediyi kimi, “Yüksək mədəniyyətə malik xalq həmişə irəli gedəcəkdir”.

**Abuzər XƏLƏFOV,**
**Əməkdar elm xadimi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, tarix elmləri doktoru, professor.**













*Oğuz:*

# Daha iki ucqar kəndə su xətti çəkildi





**Son beş-altı ildə Oğuz rayonunda görülən tikinti, quruculuq, sosial-abadlıq, yenidənqurma işlərinin həcmi, bəlkə də on-onbeş ilin bu istiqamətdəki ümumi həcmindən dəfələrlə çoxdur. Rayonun keçmişini yaşayanlar, dünənini görənlər, bu günün şahidləri öz söhbətlərində həmin fikirləri qürurla təsdiqləyirlər. Təkcə bir faktı qeyd edək ki, son dörd ildə Oğuz rayonunda Azərbaycan Kənd İnvestisiya layihəsi xətti ilə 49 layihə icra olunmuşdur. Bu neçə-neçə yaşayış məntəqəsinin yol, daxili sosial quruculuq problemlərinin həll olunması deməkdir. İçməli sudan korluq çəkən kəndlərə uzaq məsafələrdən yeni su kəmərləri çəkilmiş, yaşayış məntəqələrinə təbii qaz xəttinin çəkilişi daha da sürətlənmiş, yeni məktəblər, səhiyyə müəssisələri istifadəyə verilmişdir. Bir fakt diqqəti cəlb edir ki, indi Oğuzda təbii qazdan bəhrələnməyən 9 kənd qalır. Artıq 2018-ci ildə onların sayı minimuma endiriləcək və yaxın bir iki ilə rayonda dövlətin qazlaşma proqramı tamamilə həyata keçiriləcəkdir.**

Şəhər və kəndlərin sosial qayğılarının uğurlu həlli ilə bağlı Oğuz rayonunda demək olar hər ay təntənəli tədbirlər keçirilir, adamlara bol-bol sosial sevinclər bəxş olunur. Bu sevinclərin araya-ərsəyə gətirilməsində “Azərsu” Açıq Səhimdar Cəmiyyəti kollektivinin, onun rayondakı qurumunun — su kanal idarəsinin əməkçillərinin də layiqli payı var. Bu günlərdə kollektiv tərəfindən Oğuza daha bir sevinc payı verildi. Rayon mərkəzindən 40 kilometrdən də çox uzaqda ünvanlanan iki ucqar kəndə Astarxanovka və Vladimirovka kəndlərinə 42 kilometrlik məsafədən təbii içməli su xətti gətirildi.

Su aydınlıqdır, həyatdır. Bu aydınlıq, həyat adları çəkilən kəndlərin sakinlərinə müqəddəs bir ayda, Ramazan ayında nəsib oldu. Kəndlərdə birlikdə on yerdə bulaq qoyulub. Astarxanovkanın mərkəzindəki böyük bayram əhval-ruhiyyəli təntənə də elə bu münasibətlə təşkil olunmuşdu. Vaxtı ilə qabaqcıl sağıcı kimi tanınan Gülmayə Şahhüseynova - o gün olsun kəndimizə təbii qaz xətti çəkilişi münasibətilə belə bayram edək, - deyə dövlətə, ölkə Prezidenti İlham Əliyevə, rayon rəhbərliyinə minnətdarlığını bildirdi. Yeri gəlmişkən qeyd edək ki, su xəttinin açılışı münasibətilə olan bu tədbir kəndin 116 yaşında dünyasını dəyişən sakini Zeynəb nənənin ocağının lap qarşısında təşkil olunmuşdu. Zeynəb nənə də həmişə bu arzuyla yaşayırdı. Kənd sakinlərinin söz-söhbətindən Oğuzdan olan millət vəkili Aqiyə Naxçıvanlının da ünvanına hədsiz razılıqlar eşitdik.

Rayon icra hakimiyyəti rəhbərliyinin, müvafiq idarə, müəssisə və təşkilatların nümayəndələrinin, kənd camaatının iştirakı ilə keçirilən tədbirdə ilk olaraq **Oğuz Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Qurbanova** söz verildi. İcra başçısı rayonda bu kimi sosial problemlərin uğurlu həllində dövlət başçısı Prezident İlham Əliyevin yüksək diqqət və qayğısını xüsusi vurğuladı. Bildirdi ki, artıq Astarxanovkaya yol çəkilişinə də başlanıb və bu kəndin daha firavan sabahı olacaq. Oğuzun bütün yaşayış məntəqələri dövlətin bu cür dəstəyindən bəhrələnirlər.

**“Azərsu” ASC-nin sədrinin müavini Seymur Seyidova** söz verildi. O, qeyd etdi ki, respublikanın digər regionlarında olduğu kimi, Oğuzda da bu istiqamətdə olan layihələr uğurla icra olunur. Rayonun 9 kəndində su xəttinin çəkilişi məhz səhmdar cəmiyyət tərəfindən icra edilmişdir. Rayonda bu istiqamətdə hələ çox iş görəcəklərini də qeyd edən sədr müavini Oğuz rayon rəhbərliyinin bu məsələlərin həllində çox təşəbbüskarlıq və təşkilatçılıq göstərdiyini də vurğuladı.

**Rasim AMANOV,**
**“Respublika”.**

# Torpaqlar əkin dövriyyəsinə daxil edilir



*Hacıqabul Respublikamızın iri kənd təsərrüfatı rayonlarından biridir. Bir tərəfi Qaradağ rayonu, qalan hissəsi Salyan, Sabirabad, Şamaxı, Kürdəmir rayonu ilə sərhəd olan bu bölgənin öhdəsində min hektarlarla münbit torpaqlar var. Dövlət başçımız cənab İlham Əliyevin şəxsi təşəbbüsü və göstərişləri sayəsində ölkədə aqrar sahənin inkişafı artıq bir neçə ildir ki, prioritet hesab olunur. İllərlə istifadəsiz qalan münbit torpaq sahələri əkin dövriyyəsinə daxil edilir, burada məhsul yetişdirilir, torpaq var-dövlət mənbəyinə çevrilir. Təbii ki, bu istək heç də asanlıqla reallığa çevrilmir. Torpaqlarda münbitlik yaratmaq, ərazini əkin üçün yararlı hala gətirmək melioratorlardan səy və bacarıq tələb edir.*

*Hacıqabul rayon Suvarma Sistemləri İdarəsinin kollektivi bu məsul vəzifənin öhdəsindən ləyaqətlə gəlir. İdarənin rəisi **İbrəhim İbrəhimov** yeni mövsümdə həyata keçirilən tədbirlər barədə məlumat verir:*

—İdarəmiz rayonun 21.204 hektar suvarılan torpaqlarında kənd təsərrüfatı əkinlərini və meşə zolağını suvarma suyu ilə təmin edir. Bundan ötrü balansımızda olan suvarma sistemlərinin qorunub saxlanılması, onların normal iş rejimində istismar olunması fəaliyyətimizdə başlıca yer tutur. Yeni mövsümdə 13.014 hektar taxıl, 1300 hektar pambıq, 364 hektar çoxillik əkin, 507 hektar qarğıdalı, 98 hektar soya, 122 hektar çuğundur və sair kənd təsərrüfatı bitkilərini suvarma suyu ilə təmin etmək nəzərdə tutulur. Vəzifənin öhdəsindən lazımınca gəlirik. Bu ilin yanvar-may aylarında su mənbələrindən 49.638 milyon kubmetr su götürülmüş, su ayrıclarından SİB-lərə 37.230 milyon kubmetr su verilmişdir. Taxıl, çiğundur, qarğıdalı, çoxilliklər normal qaydada suvarılmışdır. Küryanı ərazilərdə pambıq əkinləri üçün 142 hektar sahədə qış aratı aparılmışdır.

Suvarma çətin və mürəkkəb işdir. Suvarma kanallarının, su vurma nasoslarının, maşın və aqreqatların normal işi başlıca şərtdir. Bu ilin 5 ayında yüz kilometr magistral və təsərrüfatdaxili kanallarda lildən təmizləmə işləri yerinə yetirilmişdir. Ötən aylarda bir ədəd nasos aqreqatı, bir ədəd elektrik mühərriki əsaslı təmir olunmuş, 12 ədəd hidrotexniki qurğu, 3 ədəd hidropost, 1 ədəd nasos stansiya binası, 1 ədəd mülki bina cari təmir olunmuşdur.

Rayon ərazisində Ədliyyə Nazirliyinin Dövlət Qeydiyyatından keçmiş 6 Sudan İstifadəedənlər Birliyi fəaliyyət göstərir ki, onlar su ayrıclarından suyu müqavilələr əsasında qəbul edərək növbəliklə su istifadəçiləri arasında paylayırlar.

Regionların Sosial-İqtisadi inkişafına dair Dövlət Proqramı bizim bölgədə də müvəffəqiyyətlə həyata keçirilir. 2007-ci ildə tikintisinə başlanılmış, mənbəyi Ağsu rayonu ərazisində Yuxarı Şirvan kanalının qolundan su götürən və su keçirmə qabiliyyəti saniyədə 5 kubmetr olan Hacıqabul magistral beton kanalı və Padar-Qarasu ərazisində müxtəlif sərfiyyatlı 21,2 kilometr təsərrüfatdaxili qol kanallar tikilib istifadəyə verilmişdir. Cari təsərrüfat ilində bu kanallar vasitəsi ilə Padar-Qarasu ərazilərində 6712 hektar əkin sahəsini suvarma suyu ilə təmin etmək nəzərdə tutulur.

Əkinlər suvarma suyu sarıdan korluq çəkmir. Hacıqabul SSİ mövsümdə qarşıya qoyulan bütün vəzifələri yerinə yetirəcəkdir.

**Tofiq HÜSEYN,**
**“Respublika”.**

# Tovuz: suvarma suyu boldur

**Tovuz rayonunun relyefi dağlıq və aran hissəyə malikdir. Aran bölgəsində əkinçilikdə bol məhsul əldə etmək üçün yüksək aqrotexniki qulluq lazımdır. Tovuzda hazırda əkinəyararlı torpaqlar 100% əkin dövriyyəsindədir. Rayonda mövsümə uyğun olaraq müxtəlif növ kənd təsərrüfatı məhsulları əkilib-becərilir. Əsasən kartofçuluq, taxılçılıq, üzümçülük, son dövrlərdə isə tütünçülük, eləcə də digər kənd təsərrüfatı məhsulları yetişdirilməsi yüksək təşəkkül tapmışdır. Respublikada aqrar sahədə çalışanlara dövlət dəstəyi, yəni hazır məhsulun daxili bazarlarda realizə olunması və ölkə xaricinə ixrac olunması üçün tam münbit şərait yaranmışdır ki, bu baxımdan fermerlər bol məhsul əldə etmək üçün əzmlə çalışırlar. Bu yüksək məhsuldarlığın əldə olunması, digər amillərlə yanaşı, vaxtlı-vaxtında suvarma suyuna olan tələbatın ödənilməsindən də asılıdır.**



Tovuz dağətəyi zonada yerləşdiyindən suvarma suyuna olan tələbatın bir hissəsi dağ çayları hesabına ödənilir. Meloservis xidməti barədə Tovuz rayonu Suvarma Sistemləri İdarəsinin rəisi Nəsrəddin Aslanov bizə müsahibə verdi. O, qeyd etdi ki, rəhbərlik etdiyi idarə tərəfindən 23198 ha əkin sahəsinin suvarılması yüksək peşəkarlıqla həyata keçirilir. Bunun üçün əsasən 8 mənbədən su götürülür.

“Tovuz çay” su anbarı, “Zəyəm çay”, “Axınca çay”, “Əsrik çay”, “Tovuz çay”, Qarasu arxı, Qızılulqun nasos stansiyası və Subarteziyan quyuları.

Bir məqamı xüsusilə qeyd etmək lazımdır ki, “Tovuz çay” su anbarının ümumi tutumu 20 milyon kubmetr təşkil edir. Anbarın təməli bir neçə il bundan öncə qoyulsa da, müəyyən səbəblər üzündən tikintisi dayanmışdı. Ölkə Prezidenti İlham Əliyevin imzaladığı müvafiq sərəncamla anbarın inşasına yenidən start verildi. Sevindirici haldır ki, qısa müddət ərzində anbarın inşası başa çatdırıldı. 2016-cı ildə Dövlətimizin başçısı İlham Əliyevin Tovuza növbəti səfəri zamanı rayonda əkinçiliyin daha yaxşı inkişaf etdirilməsində müstəsna əhəmiyyətə malik olan “Tovuz çay su anbarı”nın açılışını etdi. Hazırda aqrar sahədə çalışanlar anbardan bəhrələnirlər ki, bu da bol məhsulun əldə olunmasına birbaşa müsbət təsir göstərir.

Tovuz rayonu Suvarma Sistemləri İdarəsinin balansında 956.5 km suvarma kanalları vardır. Bundan 124.5 km təsərrüfatlararası, 832 km təsərrüfatdaxili arxlardır. Bundan başqa, 59.6 km beton kanallar təşkil edir. Hazırda 21 nasos stansiyası fəaliyyət göstərir. Cari ilin I rübündə 147 km arxlarda texnikaların köməyi ilə lildən təmizləmə işləri idarə tərəfindən həyata keçirilmişdir. Eyni zamanda, 18 hidrotexniki qurğu, 8 ədəd hidrometrik post, 1.5 km təzyiqli boru kəməri cari təmir edilmişdir. Rayonda 6 SİB (Sudan İstifadə Birlikləri) fəaliyyət göstərir. SİB-lər suvarma suyunun əhaliyə növbəlilik əsasında satışını həyata keçirir. İdarə hər min kub su üçün tarif şurasının təsdiqlədiyi qiymətlə, yəni 0.5 manata SİB-lər öz xidmət haqqını əlavə etməklə əhaliyə satırlar. Satışdan əldə olunan vəsait idarənin bank hesabına köçürülür. Hazırda “Tovuz çay su anbarı”nda kifayət qədər su ehtiyatı vardır. Anbara su axını davam edir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə anbara 2 mln. kubmetr artıq su toplanmışdır. “To-




vuz çay” və “Axınca çay” çaylarından anbara saniyədə 7 min litr su daxil olur.

Aparılmış profilaktiki tədbirlər nəticəsində idarənin balansında olan bütün nasos stansiyaları və hidrotexniki qurğular tam hazır vəziyyətə gətirilmişdir. Çaylarda sel və daşqın sularının qarşısını almaq üçün sahilbərkitmə işləri aparılmış və bu işlər müntəzəm davam etdirilir. Mütəxəssislərin fikrincə, bu il yağıntının iqlim normasına uyğun olması suvarma suyuna olan tələbatı ödəyir.

Bunlarla yanaşı, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC tərəfindən təsdiq edilmiş limit əsasında “Ağstafa çay” su anbarından sağ sahil kanalı vasitəsilə rayona su verilir.

Tovuz rayonu Suvarma Sistemləri İdarəsinin kollektivi rayonda bol məhsulun əldə olunması üçün öz üzərlərinə düşən vəzifəni məsuliyyətlə həyata keçirirlər.

**Vəli VƏLİYEV,**
**“Respublika”.**

# RUZİ-BƏRƏKƏT YARADANLAR

**Florası olduqca zəngin olan Göygöl rayonunun hər bir guşəsi baharın al-əlvan rənglərinə boyanıb, hər tərəf yamyaşıl örpəyə bürünüb. Yaşıl zəmilərin arasından boylanan lalələr ətrafa xüsusi təravət verir. Artıq, təsərrüfatlarda tarla işlərinin qızğın çağıdır, hamı çöldə - bayırda iş başındadır. Yayda, payızda bol məhsul götürmək üçün bütün qüvvələr səfərbərliyə alınmışdır. Belə günlərdə bol məhsula təminat yaradan əsas şərtlərdən biri, əkinlərin vaxtlı-vaxtında suvarılmasıdır.**

Müstəqil respublikamızda aqrar sahənin inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, ulu öndərin 1993-cü ildə yenidən hakimiyyətə qayıdışı ilə meliorasiya və su təsərrüfatı öz inkişafının yeni mərhələsinə qədəm qoydu. Bu sahəyə diqqət və dövlət qayğısı bərpa olundu, mövcud meliorasiya potensialının dağılmasının qarşısı alındı, ondan daha səmərəli istifadə olunması yolları və sahənin gələcək inkişaf istiqamətləri müəyyənləşdirildi. Aqrar sahə ilə yanaşı, meliorasiya və su təsərrüfatı kompleksində də islahatların həyata keçirilməsinə başlanıldı, onların normativ-hüquqi bazası yaradıldı. 1996-cı ildə imzalanmış “Meliorasiya və irriqasiya haqqında” Azərbaycan Respublikasının Qanunu bu işi daha da stimullaşdırdı. 1996-cı ildə ümummilli lider Heydər Əliyev tərəfindən “Meliorasiya və irriqasiya haqqında” Azərbaycan Respublikasının Qanununun imzalandığı 5 iyun tarixi sonralar möhtərəm Prezidentimiz İlham Əliyevin 24 may 2007-ci ildə tarixli imzaladığı sərəncamla “Meliorator günü” kimi qeyd edilmişdir. Həmin peşə bayramının miqyasını daha da genişləndirən, meliorasiya işçilərinin şərəfli əməyinə yüksək qiymət verən ölkə Prezidenti 5 iyunun Su Təsərrüfatı və Meliorasiya İşçilərinin peşə bayramı kimi daha geniş miqyasda qeyd olunması barədə 14 may 2014-cü il tarixli sərəncam imzaladı.

Qabaqcıl aqrar rayonlardan olan Göygöldə 2018-ci il ərzində suvarmanı tələb olunan səviyyədə həyata keçirmək üçün Suvarma Sistemlər İdarəsi öz işini nəzərdə tutulan tədbirlər planına uyğun olaraq qurmuşdur. Kənd təsərrüfatı bitkilərinin suvarmasını həyata keçirmək məqsədilə kanalların su limitləri təsdiq edilmiş, dövlət təsərrüfatlarının, fermerlərin, digər sudan istifadə edən qurumların və şəxslərin suya tələbatını təmin etmək üçün lazım olan bütün işlər görülmüşdür. Bir sözlə, ölkədə ərzaq təhlükəsizliyinin uğurlu həlli üçün kollektiv bütün mövcud imkanlardan maksimum istifadə edərək öz töhfələrini verməyə çalışır.

Qarşıda duran ümdə vəzifənin - ərzaq təhlükəsizliyinin təminatını və aqrar bölməni əhatə edən Dövlət proqramlarının uğurlu icrasını təmin etmək üçün suvarma və meliorasiya işçiləri var qüvvələrini səfərbərliyə almışlar. 2018-ci ilin 5 ayı ərzində suvarmanın tələb olunan səviyyədə həyata keçirilməsi Göygöl Suvarma Sistemlər İdarəsində həmin dövr üçün nəzərdə tutulan tədbirlər planına uyğun olaraq yerinə yetirilmişdir. Kənd təsərrüfatı bitkilərinin suvarmasını həyata keçirmək məqsədilə, kanalların su limitləri təsdiq edilmiş, dövlət tə-




sərrüfatlarının, fermerlərin, digər sudan istifadə edən qurumların və şəxslərin suya tələbatını təmin etmək üçün lazım olan bütün işlər görülmüşdür.

Beş ay ərzində Göygöl rayonu ərazisində 12626 ha suvarılan sahələrdə kənd təsərrüfatı bitkilərinin Suvarma Sistemləri İdarəsi tərəfindən suvarılması uğurla təmin edilmişdir. Sel və daşqınlara qarşı mübarizə tədbirləri çərçivəsində çayların məcraları mexanizmlərlə təmizlənmiş, arxların və kanalların dəhnələri şitlər və digər vasitələrlə möhkəmləndirilmişdir. Belə ki, Xanlar, Qızılca, Nadel Mollaosman, Bəhrəmbəy arxlarının dəhnələri mökəmləndirilmişdir. Bundan başqa, suvarmada 269 ədəd subartezian quyusunun (4880 hektarı təmin etməklə) və 10 ədəd su nasos stansiyasının (1294 hektarı təmin etməklə) suyundan istifadə olunur.

Hesabat dövründə idarənin balansında olan meliorasiya və irriqasiya sistemlərinin normal saxlanması və qəzasız fəaliyyəti təmin olunmuşdur. Lildən təmizləmə üzrə mexanizmlərlə 492 min kubmetr təmizlənmə işləri görülmüşdür. Eyni zamanda, rayonun ərazisində də sel sularından mühafizə tədbirlərinin həyata keçirilməsi sahəsində müvafiq işlər aparılmışdır. Sel və daşqınların qarşısını almaq üçün Gəncəçay, Kürəkçay, Qoşqar çayların məcraları mexanizmlə təmizlənmiş, Nadel, Mollaosman, Qızılca və Bəhrəmbağ arxların və kanalların dəhnələri şitlər, beton bloklar və digər vasitələrlə möhkəmləndirilmişdir.

123 min kubmetr həcmində çay məcrasında təmizləmə işləri görülmüşdür. 19 ədəd hidrotexniki qurğu, 14 ədəd hidropost cari təmir edilmiş, arxlarda və kanallarda 35000 kv.m sahə kol-kosdan təmizləmə işləri görülmüşdür. Boru kəmərində 1.5 km uzunluğunda hissələrdə cari, beton kanallarda 6.0 km-dək təmir işləri aparılmışdır.

Bundan başqa, Xanlar arxında və Xan arxında cari təmir işləri görülmüş, həmin arxlarla əkin sahələrinin tam suvarılması təminatı yaranmışdır. Kürəkçay və Qoşqarçayda qapalı boru şəbəkələri təmir edilmişdir.

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq rayon icra hakimiyyəti tərəfindən rayonun bütün ərazisində aparılan işlərlə yanaşı, rayon ərazisində irriqasiya sistemlərinin cari təmir işləri görülmüş, həyətyanı, bələdiyyə torpaqlarının və digər hüquqi, fiziki şəxslərə məxsus olan torpaqların suvarılması vaxtında təmin edilmişdir. Belə ki, 2018-ci ilin 5 ayı ərzində rayon əhalisinin əkin sahələrini suvarma suyu ilə təmin etmək, rayonda kənd təsərrüfatı məhsulları istehsalının artırılmasına zəmin yaratmaq məqsədi ilə 107 ədəd subartezian quyusunda cari təmir işləri, 5 ədəd subartezian quyusunda isə əsaslı təmir işləri aparılmışdır.

Göygöl rayonunda suvarılan sahələrdə cari ilin ötən müddətində 4952 hektar taxıl bitkiləri, 1481 hektar yem bitkiləri, 634 hektar bostan-tərəvəz bitkiləri, 1669 hektar çoxillik bitkilər, 500 hektar şəkər çuğunduru, 313 hektar günəbaxan, 2733 hektar həyətyanı sahələrin suvarılması təmin olunmuşdur.

Məlumdur ki, dövlət başçısı ərzaq təhlükəsizliyinin əsas sahəsi - taxılçılığın inkişaf etdirilməsi üçün istifadə olunmayan torpaqların əkin dövriyyəsinə cəlb edilməsi barədə müvafiq orqanlara tapşırıqlar vermişdir. Məhz onun



üçün ərzaq təhlükəsizliyinin təminatını və Dövlət proqramları olan aqrar bölmənin dinamik və davamlı inkişafını təmin etmək üçün suvarma və meliorasiya işçiləri var qüvvələrilə çalışır. Bu baxımdan müasir dövrdə bu qədər işlərin görülməsi üçün texnikanın köməyi əvəzedilməzdir. Belə ki, texnika insanların əməyini yüngülləşdirir və səmərəli edir. Geniş tarlaları suvarmaq, becərmək, yetişdirilən məhsulu yığmaq texnikanın gücü ilə başa gəlir ki, bu da insan əməyini yüngülləşdirir. Yuxarıda göstərilən bu işlərin görülməsi üçün suvarma kanalları, stasionar stansiyaları, nasos aqreqatları və qurğular normal fəaliyyətdədir. Bununla kifayətlənməyərək yeni metodlardan istifadə edərək uzun müddət istifadə olunmayan su arxlarının yararlı vəziyyətə gətirilməsi üçün müvafiq tədbirlər görülür. Balansda olan ekskavator-buldozer avtonəqliyyat və digər texnikalar təcrübəli mexanizatorların istifadəsindədir ki, bu da görüləcək işlər yüksək səviyyədə aparılmasına imkan yaradır. Mövcud texnikaların köməyi ilə ötürücü stansiyalar daim saz vəziyyətdə saxlanılır, sağ və sol sahil divarları bərkidilir, beton üzlüklər təmir olunur, lildən və alaq otlarından təmizlənir. Rayon icra hakimiyyətinin və Respublika Meliorasiya və Su Təsərrüfatı ASC rəhbərliyinin bu işdə yaxından köməyi əvəzsizdir. Suvarma işçiləri bu diqqət və qayğının müqabilində daha da əzmlə çalışırlar.

Görüşümüzün sonunda, idarə rəisi İlqar Məhərrəmov Peşə bayramı münasibəti ilə bütün melioratorları təbrik etdi və onlara göstərilən diqqət və qayğıya görə ölkə Prezidenti cənab İlham Əliyevə dərin təşəkkürünü ifadə etdi. Əminliklə bildirdi ki, Göygöl Suvarma Sistemlər İdarəsinin kollektivi, 2018-ci ildə bütün qüvvələrini səfərbər edərək, ənənəvi olaraq bol məhsulun əldə olunmasına nail olacaqlar.

**Zabit XƏLİLOV,**
**“Respublika”.**

# Məhsul bolluğunda melioratorlarımızın zəhməti

**Şahdağ və Babadağın ətəklərindən axıb gələn çayların qapqara suyu ilə qidalanan Qubanın məhsuldar torpaqları bu il daha barlı, daha bərəkətlidir. Cari ildə on min hektarlarla sahədə bol meyvə, taxıl, tərəvəz, yonca, bostan və qeyri-dənli bitkiləri yetişir. Bol məhsulun yetişdirilməsində rayon melioratorlarının da ayrıca zəhmət payı vardır. Fermer, ailə (şəxsi) təsərrüfatlarının bol suvarma suyu ilə təmin olunması üçün melioratorlar bütün imkanlardan bacarıqla istifadə edir, torpaq istifadəçilərini vaxtında suvarma suyu ilə təmin etməyə çalışırlar.**

Görülən işlər barədə **rayon Suvarma Sistemləri İdarəsinin rəisi Nazir Dadaşov** daha geniş məlumat verərək deyir: “Quba SSİ rayonda mövcud olan 26033 hektar suvarılan torpaq sahəsinə xidmət göstərir. Kəndli sahibkarlar tərəfindən bağ və əkin sahələri ilbəil genişləndirilir. Hazırda rayonumuzda suvarılan 13843 hektardan çox bağ, 3369 hektar əkin, 310 hektardan çox tərəvəz-bostan, 2949 hektar həyətyanı və 7215 hektar yem bitkiləri, biçənək və otlaq sahələri mövcuddur. Rayonda kənd təsərrüfatı bitkilərinin suvarma suyu ilə təmin olunmasında əsasən Qudyalçay, habelə rayonun ərazisindən keçən Quruçay, Qusarçay, Ağçay, Qaraçay, Cağacuqçay və Vəlvələçay suvarma sistemlərindən istifadə olunur. Bundan əlavə, su istifadəçiləri Samur-Abşeron kanalından rayonumuz üçün təsdiq edilmiş su bölgüsünün limitləri çərçivəsində 4036 hektar sahəni suvara bilirlər”.

Rayon ərazisində mövcud suvarılan torpaq sahələrinin su təminatının yaxşılaşdırılması və həmçinin sudan səmərəli istifadə olunması məqsədi ilə bu ilin əvvəlindən vegetasiya dövrü başlayana qədər suvarma sistemlərində bütün hazırlıq tədbirləri vaxtında görülmüşdür. Qeyd edək ki, vegetasiya dövrü ərzində müxtəlif növ kənd təsərrüfatı bitkilərinin suvarılması tərtib olunmuş qrafikə əsasən aparılır. Son vaxtlar suvarma suyunun sahələrə çatdırılması mexanizmi xeyli təkmilləşdirilmişdir. “Azərbaycanda Suvarma-Drenaj infrastrukturasının bərpası və tamamlanması layihəsi”nin həyata keçirilməsi nəticəsində 9600 hektar sahədə mövcud suvarma-paylayıcı sistemində təmir-bərpa kompleks tədbirləri həyata keçirilmiş, “Şıxəhməd-arx” torpaq kanalının 1800 metr uzunluğunda olan hissəsi və baş qurğusu, “Xan-arx” torpaq kanalının 2600 metr uzunluğunda olan hissəsi üzlüklə təmir olunaraq istifadəyə verilmişdir. Baş qurğudan su götürən “Qidalandırıcı” kanalın 16.7 kilometr uzunluğunda olan hissəsinə yeni beton üzlük çəkilmiş, üzərindəki su buraxıcı qapıları, körpüləri təmir olunaraq istifadəyə veril-



mişdir. “Şəfəq” Dövlət Damazlıq KTİMnin 356 hektar əkin sahəsini su ilə təmin edən 4 kilometr uzunluğunda yeni dəmir beton boru çəkilmiş, 9500 hektar suvarılan torpaq sahəsinə xidmət edən baş qurğu, su buraxıcı qapılar, körpü və digər hidrotexniki qurğular əsaslı təmir olunmuşdur.

Torpaqların su təminatının yaxşılaşdırılması üçün əlavə olaraq Mirzəqışlaq, Atuc, Zərdabi, Pirvahid, Amsarqışlaq və Küpçalqışlaq kəndlərinin hər birində - 1 ədəd, Birinci Nügədi kəndində isə - 2 ədəd, cəmi - 8 ədəd subartezian quyusu qazılıb istifadəyə verilmişdir. Cari ildə Alpan kəndində 1, Əlibəyqışlaq kəndi 1, Zizik kəndi 1, 1-ci Nügədi kəndi 1, Vəlvələ kəndlərinin hər birində 1 ədəd subartezian quyusunun qazılması nəzərdə tutulmuşdur. Vegetasiya dövrünə hazırlıq məqsədi ilə 26.3 kilometr uzunluğunda təsərrüfat kanallarında kompleks təmir-təmizləmə işləri həyata keçirilmişdir. Hazırda bu işlər davam etdirilir.

Rəis deyir ki, respublikamızın hər yerində olduğu kimi, son illər rayonumuzda da təsərrüfatçılar yeni suvarma metodlarından istifadə edirlər. Hazırda rayonumuzda 1000 hektardan çox sahə damcı üsulu ilə suvarılır. Bu suvarma üsulu olduqca əlverişli və məqsədəuyğundur. Belə suvarma metodunun tətbiqi ilə 1 hektara düşən və tələb olunan suvarma norması çox aşağıdır və su itkisinə yol verilmir .

Yaşayış məntəqələrinin və infrastruktur obyektlərinin və torpaq sahələrinin sel və daşqınlardan mühafizə olunması da ümumi işimizin bir hissəsidir. İdarəmiz tərəfindən bu sahədə də xeyli iş görülmüşdür. Qudyalçayın sağ sahilində 172 metr uzunluğunda daşlı-beton bəndin inşası başa çatdırılmışdır. Rayonun ərazisindən keçən çayların ən çox təhlükə gözlənilən hissələrində daşqın və selə qarşı mübarizə üçün 56 min kubmetr həcmində su məcraları təmizlənmiş, sahilqoruyucu və su istiqamətləndirici torpaq bəndlər qurulmuşdur. Hazırda bu işlər davam edir.

Rayonumuzda sahələri kiçik olan və zəif inkişaf edən 12 SİB-in bazası əsasında dörd - “Bərəkət,” “Dalğa,” “Həyat,” “Sarıqaya” SİB-ləri yaradılmışdır. Onu da qeyd edim ki, bu SİB-lər bir mənbədən su almaq prinsipi ilə birləşdirilmişdir.

“SİB-lərin İnkişafına Dəstək” layihəsi çərçivəsində Beynəlxalq Məsləhətçilər və rayonun dəstək qrupu tərəfindən “SİB-nin idarə edilməsi və rəhbərlik”, “Aktivlərin idarə edilməsinin planlaşdırılması”, “Büdcə və biznes planlarının tərtib edilməsi”, “Suvarma və texniki planların tərtib edilməsi” mövzularında təlimlər keçirilmişdir”.

**Ziyafəddin BAYRAMOV,**
**“Respublika”.**

# UNEC-də İslam iqtisadiyyatının banisi Məmmədhəsən Meybullayevə həsr olunan anım tədbiri

**Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) iqtisad elmləri doktoru, professor Məmmədhəsən Meybullayevin 70 illik yubileyinə həsr olunan anım tədbiri keçirilib.**



UNEC-in İctimaiyyətlə Əlaqələr Şöbəsinin məlumatında bildirilir ki, tədbirdə universitetin professor-müəllim heyəti ilə yanaşı, tanınmış akademiklər, alimin yaxınları və ailə üzvləri iştirak edib.

**Rektor, professor Ədalət Muradov** UNEC-in dəyərlərinə hər zaman sahib çıxdığını diqqətə çatdıraraq, bu dəyərlərin önündə universitetin ziyalılarının dayandığını bildirib. Professor M.Meybullayevi islam iqtisadiyyatının tədqiq edilməsində əvəzolunmaz alim adlandıran rektor, onun böyük iqtisadçılar nəslinin formalaşmasında əvəzsiz xidmətləri olduğunu vurğulayıb.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə görkəmli iqtisadçı alimin apardığı aktual tədqiqatlardan söz açıb. M.Meybullayevin islam iqtisadiyyatı, milli gəlirin təkrar istehsalı sahəsində apardığı tədqiqatların ölkə üçün böyük elmi əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb.

Akademik Vasim Məmmədəliyev yubilyarı iqtisadi bilikləri mənəvi-dini dəyərlər yönündə tədqiq edən alim kimi xarakterizə edib. M.Meybullayevin "İslam iqtisadiyyatı" monoqrafiyasında islam ölkələrinin sosial-iqtisadi inkişaf meyillərinin əsaslı şəkildə tədqiq etdiyini bildirib.

UNEC-in İqtisadiyyatın tənzimlənməsi kafedrasının müdiri, professor Məhiş Əhmədov, Nəzəri və praktiki iqtisadiyyat kafedrasının müdiri, professor Ümidvar Əliyev və digər çıxış edənlər alimin elmi-pedaqoji fəaliyyətindən söz açıblar. Azərbaycan Dövlət İqtisad Universitetində müxtəlif illərdə dosent, professor, kafedra müdiri, prorektor vəzifələrində çalışan alimin 200-dən çox elmi əsərin, 6 monoqrafiyanın, 9 dərs vəsaitinin, 4 dərsliyin müəllifi olduğunu qeyd ediblər. Əməkdar müəllim, görkəmli iqtisadçı, fədakar insan Məmmədhəsən Meybullayevin nəinki elmi-pedaqoji fəaliyyəti, həmçinin ictimai həyatda öz obyektivliyi, prinsipiallığı və tələbkarlığı ilə böyük nüfuz qazandığını bildiriblər.

Tədbirdə UNEC-in İslam İqtisadiyyatı Tədqiqat Mərkəzinin professor Məmmədhəsən Meybullayevin adını daşıması təklif olunub. Məmmədhəsən Meybullayev adına İslam İqtisadiyyatı Tədqiqat Mərkəzinin rəhbərliyi UNEC-in İqtisadiyyat (rus dilində) kafedrasının dosenti, alimin qızı Sərvinaz Xanlarzadəyə həvalə edilib. Atası barədə xatirələrini bölüşən S.Xanlarzadə görkəmli alimin ideyalarını davam etdirməkdən qürur duyduğunu bildirib. Ona göstərilən etimada görə təşəkkür edən S.Xanlarzadə bundan sonra da İslam iqtisadiyyatının araşdırılması istiqamətində yorulmadan çalışacağını vurğulayıb.

Tədbirdə professor Məmmədhəsən Meybullayevin müəllifi olduğu kitablar nümayiş olunub.

**Ülvi QARAYEV,**
**"Respublika".**

# Artıq AZAL-ın saytında Naxçıvana onlayn aviabilet almaq mümkündür

**Bu gündən etibarən "Azərbaycan Hava Yolları" (AZAL) milli aviadaşıyıcısının saytında Bakı-Naxçıvan və Naxçıvan-Bakı istiqamətində 2018-ci il 20 iyun tarixindən uçan reyslərə aviabiletləri onlayn əldə etmək mümkündür.**



Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncamına əsasən, bu istiqamətdə aviabiletin alınması üçün əvvəllər aviaşirkətinin rəsmi kassalarında sərnişinin şəxsiyyət vəsiqəsinin əsli və ya pasportu təqdim olunmalı idi. İdarələrarası razılaşmalara əsasən, bu məsələ artıq öz uğurlu həllini tapıb.

www.azal.az saytında həmin istiqamətə aviabiletin alınması prosesində sərnişinin vətəndaşlığını qeyd etməsi üçün əlavə xana əks olunacaq.

Aviabiletlər yalnız ekonom sinif tarifi üzrə təqdim olunur. Aviabiletin qiymətinə 23 kq-dək baqajın və 10 kq-dək əl yükünün (554023 sm-dək ölçülərdə) pulsuz daşınması daxildir. Bu qaydalar həm onlayn, həm də aviakassalarda alınan aviabiletlərə şamil olunur.

Nazirlər Kabinetinin qərarına əsasən müvafiq endirimlərin şamil olunduğu və əlavə təsdiqləyici sənədlərin təqdim edilməsi tələb olunan xüsusi kateqoriyalı sərnişinlər üçün aviabiletlər yalnız aviaşirkətin rəsmi kassalarında, həmçinin Bakı və Naxçıvan hava limanlarında rəsmiləşdirilir.

Qeyd edək ki, Naxçıvan-Bakı və Bakı-Naxçıvan istiqamətində aviabiletləri uçuşa ən azı 48 saat qalmış onlayn almaq olar.

Xatırladaq ki, respublika daxili reyslərə aviabiletlərin qiyməti Tarif Şurası tərəfindən tənzimlənir və hazırda Bakı-Naxçıvan və Naxçıvan-Bakı istiqamətində aviabiletin qiyməti Azərbaycan vətəndaşları və vətəndaşlığı olmayan şəxslər üçün 50 manat, xarici vətəndaşlar üçün isə 70 manat təşkil edir.

Həmçinin, aviaşirkətin qaydalarına əsasən, aviabilet üçün ödəniş edildiyi plastik kartın sahibi müstəqil şəkildə və ya qrupun tərkibində səyahət etdiyi təqdirdə aviabiletləri onlayn əldə etmək mümkündür. Kartın həqiqiliyi və onun sərnişinin pasportuna uyğunluğu hava limanında qeydiyyat agentləri tərəfindən mütləq qaydada yoxlanılacaq.

Bakı və Naxçıvan arasında reyslər gündə bir neçə dəfə (yüklənmə və mövsümdən asılı olaraq) həyata keçirilir. Aviaşirkətin saytındakı "Məlumat" bölməsində uçuş cədvəl ilə ətraflı tanış olmaq olar. Bakıdan uçuşlar Heydər Əliyev Beynəlxalq Aeroportunun ikinci terminalının cənub qanadından həyata keçirilir, Naxçıvandan uçuşlar isə Naxçıvan Beynəlxalq Aeroportunun hər iki terminalından həyata keçirilir.

**"Azərbaycan Hava Yolları" QSC-nin mətbuat xidməti.**

# Hüquq mühafizə orqanlarının əməkdaşlarına silahlı müqavimət göstərən sərhəd pozucusu zərərsizləşdirilib

**İyunun 4-də saat 21:40 radələrində Qusar rayonunun Yuxarı Zeyxur kəndi ərazisindəki sərhəd zastavasının yaxınlığında bir nəfərin Azərbaycanın mühafizə olunan dövlət sərhədini pozmağa cəhd göstərməsi müəyyən edilib.**

Qusar Rayon Prokurorluğunun AZƏRTAC-a daxil olan məlumatında bildirilir ki, saxlanılması ilə bağlı qanuni tələblərə tabe olmayan sərhəd pozucusu - 1996-cı il təvəllüdlü Zeynalov Vadim Mərdanoviç hüquq mühafizə orqanları əməkdaşlarına atəş açaraq silahlı müqavimət göstərib, lakin cavab tədbiri olaraq xidməti silahdan istifadə edilərək zərərsizləşdirilib.

Cəsədin üzərinə baxış keçirilən zaman bir "Makarov" tipli tapança aşkarlanaraq maddi sübut kimi götürülüb.

Faktla bağlı Qusar Rayon Prokurorluğunda müvafiq araşdırmalar aparılır.

**AZƏRTAC**

# "AzerGold" QSC Daşkəsəndə ekoloji tədbir keçirib ®




"AzerGold" Qapalı Səhmdar Cəmiyyəti (QSC) Daşkəsən rayonunun Quşçu kəndinin Mədəniyyət Mərkəzində ekologiya və ətraf mühitin mühafizəsi mövzusunda tədbir keçirib. 5 iyun - Ümumdünya ətraf mühit günündə keçirilən tədbir ictimaiyyəti ətraf mühitin mühafizəsi və ekoloji tarazlığın qorunmasında daha da fəal olmağa dəvət etmək məqsədi daşıyır. Tədbirdə çıxış edən "AzerGold" QSC-nin SƏTƏM və KİS şöbəsinin nümayəndələri ekoloji tarazlığın qorunması və ətraf mühitin mühafizəsinin QSC-nin fəaliyyətində daşıdığı önəm, Cəmiyyətin ekoloji siyasəti, Çovdar filiz emalı sahəsində tullantıların idarə olunması qaydaları, istehsal prosesi nəticəsində atmosferə atılan zərərli qazların miqdarının ölçülməsinin mahiyyəti, su nümunələrinin götürülməsinin vacibliyi və digər təşkilatlarla əməkdaşlıq haqqında tədbir iştirakçılarına ətraflı məlumat veriblər. Ekologiya və ətraf mühitin mühafizəsi mövzuları ətrafında geniş müzakirələrlə davam edən tədbirdə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 13 saylı Ərazi Ekologiya və Təbii Sərvətlər Şöbəsi və Daşkəsən rayon Meşə Mühafizəsi və Bərpası Müəssisəsinin rəhbər şəxsləri, yerli bələdiyyə, ictimaiyyət və KİV nümayəndələri iştirak ediblər.

Qeyd edək ki, ətraf mühitin mühafizəsi "AzerGold" QSC-nin Korporativ Sosial Məsuliyyət siyasətinin 4 əsas istiqamətindən birini təşkil edir. Bu istiqamət çərçivəsində görülən işlər sayəsində Çovdar filiz emalı sahəsi qızıl çıxımı və müasir texnologiyaların tətbiqi ilə yanaşı, ətraf mühitin qorunması sahəsində MDB məkanında lider mövqelərə yüksəlib. ■



# "Bakı Ovuntu Metallurgiya" ASC-nin 2017-ci il üçün maliyyə hesabatı

**"Bakı Ovuntu Metallurgiya" ASC**
**Pul vəsaitlərinin hərəkəti haqqında hesabat**
**31 dekabr 2017-ci il tarixinə**

| Göstəricilər | Qeydlər istinad | 31.12.2015 | 31.12.2017 |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Hesabat dövründə xalis mənfəət və ya zərər | | 2304.29 | 6758.67 |
| aşağıdakı maddələr üzrə düzəlişlər | | | |
| azlıq təşkil edən mükiyyətçilərin planı | | | |
| fövqəladə gəlirlər və xərclər | | | |
| mənfəət vergisi üzrə xərclər | | 460.86 | 1351.73 |
| qeyri-pul maddələri üzrə gəlirlər və xərclər | | | |
| İnvestisiya fəaliyyəti və ya maliyyələşdirmə üzrə fəaliyyətə aid olan digər maddələr | | | |
| aşağıdakı maddələr üzrə baş verən dəyişikliklər | | | |
| ehtiyatların (artması) azalması | | | |
| əməliyyat debitor borcları və gələcək dövrlərin xərcləri azalması (artması) | | | |
| əməliyyat kreditor borcları və hesablaşmaların artması (azalması) | | | |
| Ödənilmiş (qaytarılmış) mənfəət vergisi | | 460.86 | 1351.73 |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | | |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | | **3226.01** | **9462.13** |
| Komisyon yığımları və ödənilmiş digər oxşar məbləğlər daxil olmaqla uzunmüddətli qeyri-maliyyə aktivlərinin əldə edilməsi üçün, eləcə də uzunmüddətli qeyri-maliyyə aktivlərinə aid edilən kapitallaşdırılmayan məsrəfləri ilə əlaqədar pul vəsaitlərinin xərclənmələri | | | |
| Uzunmüddətli qeyri-maliyyə aktivlərinin satışından pul vəsaitlərinin daxilolmaları | | | |
| Törəmə, asılı və birgə müəssisələrdə investisiyaların əldə olunması ilə bağlı pul vəsaitlərinin daxilolmaları | | | |
| Törəmə, asılı və birgə müəssisələrdə investisiyaların satışından yaranan pul vəsaitlərinin daxilolmaları | | | |
| Digər tərəflərə verilmiş qısamüddətli və uzunmüddətli borcların geri qaytarılmasından yaranan pul vəsaitlərinin daxilolmaları | | | |
| Törəmə müəssisələrdə və təsərrüfat vahidlərində mövcüd olan pul vəsaitləri çıxılmaqla həmin qurumların əldə edilməsi üçün pul vəsaitlərinin xərclənmələri | | | |
| Törəmə müəssisələrdə və təsərrüfat vahidlərində mövcüd olan pul vəsaitləri çıxılmaqla həmin qurumların satışından əldə olunan pul vəsaitlərinin xərclənmələri | | | |
| Fyuçers, forvard, opsion və svop müqavilələri üzrə pul vəsaitlərinin xərclənmələri | | | |
| Fyuçers, forvard, opsion və svop müqavilələrindən yaranan pul vəsaitlərinin daxilolmaları | | | |
| Dividentlərin və gəlirin digər oxşar növləri şəklində pul vəsaitlərinin daxilolmaları | | | |
| Alınmış faizlər şəklində pul vəsaitlərinin daxilolmaları | | | |
| İnvestisiya fəaliyyəti ilə əlaqədar pul vəsaitlərinin fövqəladə daxilolmaları və xaricolmaları | | | |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | | |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | | |
| Səhmlərin və digər oxşar alətlərin buraxılması nəticəsində yaranan pul vəsaitlərinin daxilolmaları | | | |
| Müəssisənin öz səhmlərinin və digər oxşar alətlərinin geri alınması pul vəsaitlərinin xaricolmaları | | | |
| Borc şəklində alınmış məbləğlərdən yaranan pul vəsaitlərinin daxilolmaları | | | |
